RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 138 (9593) 5 iyul 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri



# İkinci dəvət

## Bu, Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisidir

## Azərbaycan Prezidenti İlham Əliyev Astanada "ŞƏT plyus" formatında keçirilmiş görüşdə çıxış edib



**İyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmək üçün "Müstəqillik" Sarayına gəldi.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dövlətimizin başçısını qarşıladı.

Görüş iştirakçıları birgə foto çəkdirdilər.

Sonra tədbir iştirakçılarının şərəfinə rəsmi ziyafət verildi.

Daha sonra "ŞƏT plyus" formatında görüş keçirildi.

Şanxay Əməkdaşlıq Təşkilatının sədri, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "ŞƏT plyus" formatında görüşdə iştirak edən dövlət və hökumət başçılarını salamladı və çıxış etdi.

Qazaxıstan Prezidenti Azərbaycanın ŞƏT-ə üzv ölkələrlə yüksəksəviyyəli əlaqələrinə toxundu, bu ilin noyabrında Bakıda keçiriləcək COP29-un əhəmiyyətini vurğulayaraq dedi:

- Biz bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransında iqlim gündəliyi ilə bağlı həmrəyliyimizi nümayiş etdirə biləcəyik. Fürsətdən istifadə edərək, möhtərəm Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə bu qlobal tədbirin keçirilməsində uğurlar arzulayıram.

❖ ❖ ❖

Sonra görüşdə BMT-nin Baş katibi Antonio Quterreş, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən Məhəmməd Moxber, Çin Xalq Respublikasının Sədri Si Cinpin, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Hindistan Respublikasının xarici işlər naziri Subrahmanyam Cayşankar, Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsux çıxış etdilər.

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

- İndi isə sözü fəxri qonaq qismində görüşə dəvət olunmuş dövlət başçılarına vermək istərdim.

Söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

→ 2

## "Azərbaycan-ABŞ münasibətlərinin genişlənməsində maraqlıyıq"

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Cozef Baydenə

Hörmətli cənab Prezident.

4 İyul - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə münasibətlərinə xüsusi əhəmiyyət verir. Ölkələrimiz mürəkkəb regional çağırışların həlli istiqamətində, terrorizmə qarşı mübarizə və beynəlxalq təhlükəsizlik məsələlərində hər zaman yaxından əməkdaşlıq ediblər. Enerji sahəsindəki uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir. Birləşmiş Ştatların Azərbaycanın enerji strategiyasının gerçəkləşməsinə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan "Cənub qaz dəhlizi"nin reallaşmasına verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndiririk.



Xalqlarımızın mənafeləri naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqlim dəyişmələri və "yaşıl enerji"yə keçid məsələlərində ABŞ ilə birgə səylər göstərməyə hazır olduğumuzu vurğulamaq istəyirəm. ABŞ-nin noyabr ayında Bakıda keçiriləcək COP29-a, tədbir çərçivəsində ümumi iqlim məqsədlərinin irəli aparılması yolunda dəstəyi böyük əhəmiyyət kəsb edir. Biz eyni zamanda humanitar, mədəniyyət və turizm sahələrində, sivilizasiyalararası dialoqun təşviqində də Azərbaycan-ABŞ münasibətlərinin genişlənməsində maraqlıyıq.

Azərbaycan yeni geosiyasi reallıqlara və ədalətə əsaslanan, hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş və inklüziv Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasının tərəfdarıdır. Azərbaycan Ermənistan ilə sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarı olaraq sülh gündəliyinin irəli aparılması üçün daim siyasi iradə nümayiş etdirir. Ermənistan ilə münasibətlərin normallaşdırılmasına, bölgədə davamlı sülhün bərqərar edilməsi, sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-nin hər zaman dəstək vermək əzmini təqdir edirik.

Bu gün qarşılıqlı faydalı iqtisadi-ticari əlaqələrimizin şaxələndirilməsi, xüsusilə də yüksək texnologiyalar, rəqəmsal və yaşıl keçid, kənd təsərrüfatı, investisiyalar, aviasiya və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır.

İnanıram ki, dost və tərəfdaş olan Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələri əhatə edən sıx əməkdaşlığın ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2024-cü il*

## Geniş coğrafiya, böyük potensial, real güc

### Bu gün Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü öz işinə başlayır

Türk dünyasının inteqrasiyası Azərbaycan üçün, sadəcə, bəyanatlarla çıxış etmək deyil, müxtəlif sferalarda həyata keçirilən və türkdilli ölkələri addım-addım bir-birinə daha da yaxınlaşdıran, müxtəlif tərəfdaşlıqlarla sıx bağlayan konkret layihələr, tədbirlərdir. Eyni zamanda türk dövlətləri arasında müxtəlif formatlarda yaranan ortaq müzakirə platformalarıdır.

İyunun 15-də Milli Qurtuluş Günü və Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı əsasında Şuşada təşkil edilmiş beynəlxalq konfrans bunun örnəklərindən oldu. Konfrans "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusuna həsr edilmişdi.

Məlum olduğu kimi, getdikcə güclənən Türk Dövlətləri Təşkilatı qlobal təsir imkanlarını genişləndirir. Hazırda bu təşkilat təkcə üzv ölkələr arasında deyil, həm də regional səviyyədə mühüm aktordur. Mərkəzi Asiya, Qafqaz və Avropa arasında körpü rolunu oynayan Türk Dövlətləri Təşkilatı bu coğrafiyaların inteqrasiyasını və əməkdaşlığını təşviq edir. Beynəlxalq təşkilatlarla qurulan əlaqələr və birgə layihələr türk dünyasının beynəlxalq arenada daha fəal rol oynamasına şərait yaradır.

Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq məsələlərini də təşviq edən TDT üzv ölkələr arasında bu sahələrdə əlaqələrin möhkəmləndirilməsi istiqamətində çalışır. Birgə təlimlər, təhlükəsizlik konfransları və terrorla mübarizə mövzularında məlumat mübadiləsi kimi fəaliyyətlər regional sabitliyin təmin edilməsinə mühüm töhfələr verir.

→ 6

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

# İkinci dəvət

## Bu, Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisidir

## Azərbaycan Prezidenti İlham Əliyev Astanada "ŞƏT plyus" formatında keçirilmiş görüşdə çıxış edib





### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət və hökumət başçıları.

Əvvəlcə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısına dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim.

Bu, mənim son iki ildə Qazaxıstana dördüncü səfərimdir. Həmin müddətdə Qazaxıstan Prezidenti Azərbaycana üç dəfə səfər edib və bu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir.

Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib.

Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artıb.

Biz tərəfdaşlarımızla Orta dəhlizin rəqəmsallaşması üzərində işləyirik.

Bundan başqa, Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq niyyətindədir.

Azərbaycan həmçinin "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafında mühüm rol oynayır. "Şimal-Cənub" dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq.

Hörmətli həmkarlar, 2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi.

Azərbaycan multilateralizmi fəal şəkildə dəstəkləyir. Biz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdik, onun qlobal arenada nüfuzunu və gücünü möhkəmləndirdik, Hərəkatın institusional inkişafına töhfə verdik, üzv dövlətlərin dəstəyi ilə hərəkatın Parlament Şəbəkəsini, Gənclər Təşkilatını təsis etdik, habelə Qadın Platformasının əsasını qoyduq.

Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a evsahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.

Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm.

Sağ olun.

❖ ❖ ❖

Prezident **Kasım-Jomart Tokayev** dedi:

- Hörmətli İlham Heydər oğlu Əliyev, məzmunlu çıxışınıza görə Sizə təşəkkür edirəm. Biz Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin möhkəmləndirilməsi səylərinə böyük əhəmiyyət veririk.

❖ ❖ ❖

Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Birləşmiş Ərəb Əmirliklərinin Ras əl-Xeymə Əmirliyinin hakimi Saud bin Saqr Al Qasimi çıxış etdilər.

❖ ❖ ❖

Qeyd edək ki, "ŞƏT plyus" formatında keçirilən görüşə 16 ölkənin dövlət və hökumət başçıları qatılıb. Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ŞƏT-in sədri statusunda dəvəti ilə görüşdə iştirak edib. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib. Azərbaycanın belə mötəbər təşkilatın sammitinə ikinci dəfə dəvət olunması ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir.

Həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda ŞƏT-in 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. Xatırladaq ki, 2022-ci ilin sentyabrında Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.




### Prezident İlham Əliyevin Qazaxıstana səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri iyulun 4-də başa çatıb.

# Şanxay Əməkdaşlıq Təşkilatı Zirvə toplantısı



## Qardaş birliyi

### Sarsılmaz həmrəylikləri Azərbaycan, Türkiyə və Pakistanı qlobal təhdidlər qarşısında daha qüdrətli edir

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində əsas siyasi tədbirlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüşün keçirilməsi oldu.**

Qardaş ölkələrin liderlərinin üçtərəfli formatda ilk Zirvə görüşü kimi tarixi əhəmiyyət daşıyan bu görüş həm də Azərbaycan, Türkiyə və Pakistanın sarsılmaz birliyini dünyaya bir daha nümayiş etdirdi.

#### Azərbaycan tək deyil

Milli və mənəvi köklərlə sıx bağlı olduğumuz Türkiyə və Pakistanla birliyimiz hazırda ən yüksək zirvəyə çatıb. Qardaş ölkələrin liderləri arasında olan səmimi dostluq, qardaşlıq münasibətləri ölkələrimizin əzəldən var olan əlaqələrini daha da möhkəmləndirib. Azərbaycan, Türkiyə və Pakistan xoş gündə də, dar gündə də həmrəylik nümayiş etdirir, problemlərə qarşı birgə mübarizə aparırlar. Bu möhtəşəm birliyin gücünə hələ 44 günlük Vətən müharibəsində hər kəs şahid oldu.

Həmin zaman Azərbaycan Türkiyə və Pakistanın böyük siyasi və mənəvi dəstəyini hiss etdi, ərazi bütövlüyü uğrunda apardığı haqq mübarizəsində onlar tərəfindən açıq siyasi və mənəvi kömək gördü. Vətən müharibəsinin başladığı ilk günlərdən Prezident Rəcəb Tayyib Ərdoğan verdiyi açıqlamalarda bəyan etdi ki, Azərbaycan bu haqq savaşında tək deyil, onun Türkiyə kimi böyük qardaşı, arxa-dayağı və etibarlı tərəfdaşı var. Həmin dövrdə Türkiyəyə qarşı xeyli beynəlxalq təzyiqlər edildi, amma Ankara bu qəti mövqeyindən geri çəkilmədi, Azərbaycanın yanında oldu.

2020-ci il dekabrın 10-da, Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi və bu, iki qardaş ölkənin qələbə qürurunu birlikdə yaşamasına əyani nümunə oldu.

44 günlük müharibədə Pakistan da Azərbaycana böyük siyasi və mənəvi dəstəyini ifadə edən dövlətlərdən oldu. Savaşın ilk günündə rəsmi İslamabad bildirdi ki, Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir.

2020-ci il oktyabrın 28-də Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin ölkəmizin mülki əhalisinə qəddar hücumlarını qəti şəkildə pisləyən qətnamə qəbul etdi.

Xüsusi vurğulayaq ki, Pakistan Ermənistanın Azərbaycana qarşı otuzillik işğalı dövründə bu dövlətlə diplomatik əlaqə qurmayan üç ölkədən biridir.

Qardaş ölkələrin liderlərinin üçtərəfli formatda ilk zirvə görüşü zamanı da 44 günlük Vətən müharibəsində Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulanıb. Bunun Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyi qeyd olunub.

#### Üçtərəfli format

Müharibədən sonrakı dövrdə də Azərbaycanın Türkiyə və Pakistanla əlaqələri bütün sahələr üzrə yüksələn xətt üzrə inkişaf edir. 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağın mirvarisi Şuşada tarixi Şuşa Bəyannaməsini imzalaması ilə qardaş ölkələrin əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldi.

Eyni ilə də Pakistanla Azərbaycan arasında əlaqələr mükəmməl səviyyədədir. Ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox sıx əməkdaşlıq edirlər.

Ümumiyyətlə, Azərbaycan, Pakistan və Türkiyə üçtərəfli formatda da əməkdaşlığa malikdir. Astanada keçirilən sözügedən görüşdə ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqtisadi-ticari əlaqələrin hazırda artan dinamikası müsbət hal kimi qeyd edildi, amma bunun ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılmasının vacibliyi vurğulandı.

Eyni zamanda Orta dəhlizdə Pakistanın da iştirakı qeyd edildi və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirildi.

#### Hərbi və müdafiə sənayesi sahələrində əməkdaşlıq

Azərbaycan, Türkiyə və Pakistan arasında hərbi sahədə əməkdaşlıq da xüsusi diqqət çəkir ki, dünyanın yenidən bölüşdürülməsi uğrunda getdikcə artan müharibələrin fonunda bunun necə əhəmiyyəli olduğu özünü qabarıq göstərir. Bu gün Cənubi Qafqaz regionu da qlobal güclərin göz dikdiyi və savaş meydanına çevirmək istədiyi məkanlar sırasındadır. Buna görə də Azərbaycan, Türkiyə və Pakistanın hərbi əməkdaşlığı regional sabitliyin və təhlükəsizliyin də qarantına çevrilir.

ŞƏT çərçivəsindəki üçtərəfli görüşdə bu mühüm məqamdan da söz açılaraq hərbi və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulanıb. Qardaş ölkələrin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edilib və məmnunluqla qəbul olunub. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulanıb.

Göründüyü kimi, təməli səmimi qardaşlıq və dostluq münasibətləri üzərində qurulan Azərbaycan, Türkiyə və Pakistan birliyi gün keçdikcə daha da möhkəmlənir. Bu güclü həmrəylik sayəsində qardaş ölkələr qarşılaşdıqları bütün problemləri asanlıqla aşmaq və istənilən gücləri yerində oturtmaq əzmində olurlar.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Çin Azərbaycanı seçir

### Qlobal iqtisadi fövqəlgüc Qafqazın lider dövləti ilə əməkdaşlığı genişləndirir

**Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında keçirilən görüş iki ölkə arasındakı yüksək siyasi və dostluq münasibətlərinin nümayişi oldu. Görüş çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul olunması isə iki dövlət arasındakı əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəltdi.**



#### Dostluğa, qarşılıqlı etimada və çoxşaxəli tərəfdaşlığa söykənən əlaqələr

Çin Xalq Respublikası təkcə qədim tarixi, ənənələri, mədəniyyəti, ixtiraları ilə deyil, həm də müasir dünyada çox sürətlə inkişaf edən bir ölkə kimi diqqəti cəlb edir. Xüsusən son üç onillikdə bu inkişaf dünyanın başqa böyük ölkələrindən fərqli olaraq fasilə vermədən, təəccüb doğuran sürətlə davam edir. Bir vaxtlar iqtisadi inkişaf səviyyəsinə görə çox geri qalan, əhalisi yoxsul yaşayan Çin indi iqtisadi göstəricilərinə görə dünyada ABŞ-dən sonra ikinci yerdə gəlir. Xüsusən son onilliklərdə Çin misilsiz nailiyyətlər əldə etmişdir. Hazırda bu dövlət öz inkişaf sürəti, innovativ texnoloji yenilikləri ilə dünyanı heyrətləndirməkdə davam edir.

Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələr dostluğa, qarşılıqlı etimada və çoxşaxəli tərəfdaşlığa əsaslanmaqla yüksək inkişaf dinamikası ilə seçilir. Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin 1994-cü ilin mart ayında Çinə rəsmi səfəri ilə əsası qoyulmuş yüksəksəviyyəli siyasi dialoqun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində sonrakı dövrdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlib.

Azərbaycan və Çin bir-birinin milli maraqlarına daim qarşılıqlı dəstək nümayiş etdiriblər. Coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşmələrinə baxmayaraq, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri iki ölkə arasında qarşılıqlı əlaqələrin dinamik inkişafına əlverişli zəmin yaradıb. Hər iki dövlətin rəhbəri əlamətdar günlərdə qarşılıqlı olaraq münasibətlərin yüksək məzmununu və əlaqələrin daha da inkişafını ehtiva edən siyasi iradənin əks olunduğu məktublar ünvanlayıblar. Bütün bunların nəticəsi olaraq Azərbaycan-Çin münasibətləri sürətlə inkişaf edib.

#### Prezident İlham Əliyevə və ölkəmizə olan böyük ehtiramın göstəricisi

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan Çinin "Vahid Çin" siyasətini, Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını daim dəstəkləyib. Çin tərəfindən irəli sürülmüş "Bir kəmər bir yol" təşəbbüsü ikitərəfli münasibətlərin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb və Azərbaycan bu məsələdə Çinin əsas tərəfdaşlarından biridir.

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında Astanada keçirilən görüşdə diqqət mərkəzinə gətirildi. Prezident İlham Əliyev Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyini vurğuladı. Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun artırılmasının Çin tərəfindən dəstəkləndiyi qeyd olundu, gələn il Çinin sədrliyi çərçivəsində bu məsələyə xüsusi diqqət yetiriləcəyi bildirildi. Si Cinpinin Azərbaycan Prezidentini Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına, eyni zamanda bu əsnada Çinə dövlət səfərinə dəvət etməsi isə bir daha Prezident İlham Əliyevə və ölkəmizə olan böyük ehtiramın nümayişi oldu. Eyni zamanda Prezident İlham Əliyev də ÇXR Sədrini uyğun vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi.

Siyasi müstəvidə əlaqələrin yüksək səviyyəsi iqtisadi əməkdaşlığa da təsirsiz ötüşmür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkələrimiz arasında əmtəə dövriyyəsi 3 milyard dollara çatıb və artım potensialına malikdir. Azərbaycanın Çinin 6 şəhərində ticarət evi də fəaliyyət göstərir.

#### Birgə Bəyannamə münasibətləri tamamilə yeni müstəviyə yüksəldir

BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Çin dünyanın fövqəlgüc dövlətləri sırasındadır. Bu ölkənin siyasi-iqtisadi addımları bütün qlobal iqtisadiyyata təsirsiz ötüşmür. Qürurludur ki, məhz belə bir dövlət xarici əlaqələrində Qafqazın lider dövləti olan Azərbaycanla tərəfdaşlığın və əməkdaşlığın yüksəldilməsinə böyük önəm verir. Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul olunması bunu təsdiq edir.

Birgə Bəyannamə Azərbaycanla Çin arasında əməkdaşlığa dair bütün məsələləri əhatə edir. Sənədə əsasən tərəflər strateji tərəfdaşlıq qurur, ikitərəfli münasibətlərin təməl prinsipləri olan qarşılıqlı hörmət, bərabərlik, etimad, dəstək, qarşılıqlı fayda və əməkdaşlıqdan çıxış edirlər. Eyni zamanda Azərbaycanla Çin bir-birini etibarlı tərəfdaş hesab edir və xarici amillərdən asılı olmayaraq ikitərəfli münasibətlər üzrə siyasətlərini müstəqil şəkildə müəyyənləşdirirlər. Bütövlükdə isə Birgə Bəyannamə Azərbaycanla Çin arasındakı münasibətləri tamamilə yeni müstəviyə yüksəldir.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

## Astana Zirvə görüşü yeni uğurların təməlini qoydu

### Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatına dəvət edilməsi ona olan yüksək etimadın və inamın göstəricisidir

**"Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşü ona üzv olan ölkələrin iqtisadiyyatının inkişafı, təhlükəsizliyin təmin edilməsi, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, vacib problemlərin həlli, birgə fəaliyyətin tənzimlənməsi baxımından böyük əhəmiyyətə malikdir.**

Prezident İlham Əliyevin Zirvə toplantısına qonaq qismində ikinci dəfə qatılması isə dövlətimizin dünyada artan nüfuzunun və ona göstərilən böyük etimadın ifadəsi olmaqla bərabər, ölkəmizə bəslənilən ümid və onun gələcəyinə olan inamdır".

Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib. Deputat qeyd edib ki, ölkəmiz dünyanın iqtisadi cəhətdən inkişaf edən və ictimai-siyasi baxımdan ən sabit ölkələrindən biridir. Azərbaycan həm də Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində dünya dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına, əlaqələrin möhkəmləndirilməsinə, sülhün, əmin-amanlığın təmin edilməsinə böyük önəm verir və bu sahədə imkanlarını və təşəbbüslərini əsirgəmir.

Şanxay Əməkdaşlıq Təşkilatı da öz fəaliyyətində demokratik prinsiplərə, dövlətlər arasında qarşılıqlı etimada və qonşuluq münasibətlərinə, siyasət, ticarət, iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, təhsil, enerji, nəqliyyat, turizm, sülh, təhlükəsizlik və sabitliyin əldə olunması üçün səylərin birləşdirilməsinə əsaslanan bir orqan kimi üzv dövlətlərin əlaqələn-



dirilməsində, vacib problemlərin müzakirə edilib aradan qaldırılmasında mühüm rol oynayır.

Deputat qeyd edib ki, Azərbaycan bu təşkilatda dialoq tərəfdaşı statusuna sahib olmasına baxmayaraq, onun fəaliyyətində yaxından iştirak edir. Bu qurumla ölkəmiz arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb: "Terrorizm, ekstremizm və separatçılıq ilə mübarizəyə, regional təhlükəsizlik və sabitliyin qorunmasına böyük önəm verən dövlətimiz hər sahədə təşkilatla əlaqələrini ildən-ilə möhkəmləndirmək əzmindədir. 16 ölkənin dövlət və hökumət başçılarının qatıldığı Zirvə görüşünün "Çoxtərəfli dialoqun möhkəmləndirilməsi - davamlı sülhə və inkişafa nail olmaq" mövzusuna həsr edilməsi bu günümüz üçün vacib və bəşəriyyəti düşündürən başlıca məsələdir. Cənab İlham Əliyevin Zirvə görüşü çərçivəsində Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Çin Xalq Respublikasının sədri Si Cinpin ilə görüşləri, əlbəttə ki, ölkəmizin gələcək inkişafı və təhlükəsizliyi baxımından çox əhəmiyyətlidir". T.Rzayev bildirib ki, Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul edilməsi dövlətimizin yeni uğurudur. Çünki Çin dünyanın iqtisadi cəhətdən inkişaf edən və böyük nüfuza malik olan dövlətlərindən biridir. Bəyannaməyə əsasən, tərəflər terrorizmin, separatizmin və ekstremizmin bütün beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaratdığını nəzərə alaraq bu çağırışların qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün ümumi səyləri birləşdirməyi qarşıya məqsəd qoyurlar.

Prezident İlham Əliyevin Çin Xalq Respublikası ilə əlaqələrin möhkəmləndirilməsinə böyük önəm verdiyini vurğulayan komitə sədri xatırladıb ki, dövlət başçısı çıxışı zamanı bunu bir daha ifadə edib: "Ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması bizi sevindirir, o, 3 milyard dollara çatıb və artım potensialına malikdir. Biz Çin Xalq Respublikasından Azərbaycana ixracın artmasından məmnunuq".

Deputatın sözlərinə görə, Astanada Azərbaycan, Türkiyə və Pakistan dövlət rəhbərlərinin bir araya gəlməsi və mühüm sənədlərin imzalanması, dünyanın diqqət mərkəzində olan vacib problemlərin gündəmə gətirilməsi sülh və təhlükəsizliyə zəmanətdir. Bu dövlətlər daim bir-biri ilə sıx əlaqədə olub, tarixi və mədəni bağları, qarşılıqlı hörmət və etimad əsasında əməkdaşlığı möhkəmləndiriblər.

"Üçtərəfli görüş hər üç ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin yeni istiqamətdə genişləndirilməsinə imkanlar yaradır və bu, gələcək inkişafa, təhlükəsizliyə hesablanıb.

Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatında iştirakı və keçirilən səmərəli görüşlər zamanı bir çox məsələlərin gündəmə gətirilməsi, mövcud problemlərin həllinin araşdırılması, əməkdaşlığın möhkəmləndirilməsinə səylərin göstərilməsi və uğurların əldə edilməsi Azərbaycanın qələbəsidir və dövlətimizin getdikcə artan nüfuzunun parlaq göstəricisidir", - deyə deputat əlavə edib.

T.Rzayev sonda qeyd edib ki, uğurlarımızın artması, Prezident İlham Əliyevə və dövlətimizə göstərilən yüksək hörmət və ehtiram xalqımızın xoşbəxt gələcəyinə yeni yollar açır, Azərbaycanı möhkəmləndirir və şöhrətləndirir. Bu, əlbəttə ki, xalqımızı sevindirir və onları yeni uğurlara ruhlandırır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 326 **QƏRAR** Bakı şəhəri, 1 iyul 2024-cü il

### “Dəmiryol nəqliyyatı haqqında Nizamnamə”nin təsdiq edilməsi barədə

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı haqqında Nizamnamə" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 327 **QƏRAR** Bakı şəhəri, 2 iyul 2024-cü il

### Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısının, onların geyim formasının, fərqlənmə nişanlarının təsvirinin və daşınması Qaydasının təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin vəzifələrinin siyahısı" təsdiq edilsin *(1 nömrəli əlavə)*.
2. "Dəmiryol nəqliyyatında hərəkətin təşkilində birbaşa iştirak edən şəxslərin geyim formasının, fərqlənmə nişanlarının təsviri və daşınması Qaydası" təsdiq edilsin *(2 nömrəli əlavə)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 328 **QƏRAR** Bakı şəhəri, 2 iyul 2024-cü il

### “Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 330 **QƏRAR** Bakı şəhəri, 3 iyul 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin 0713 10 100 1 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "fevral, mart, aprel və may ayları üzrə" sözləri "oktyabr, noyabr, dekabr, yanvar, fevral və mart ayları üzrə" sözləri ilə əvəz edilsin.
2. Bu Qərar dərc edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Fövqəladə Hallar Nazirliyində COP29-la bağlı qərargah yaradılıb

**İyulun 4-də Fövqəladə Hallar Nazirliyində bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-a hazırlıq çərçivəsində aidiyyəti təhlükəsizlik məsələlərinin müzakirəsi məqsədilə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.**

Müşavirədə nazir müavinləri, FHN-in müvafiq struktur bölmə və qurumlarının rəhbərləri iştirak ediblər. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirədə çıxış edən Kəmaləddin Heydərov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi barədə qəbul edilmiş qərarın Azərbaycanın növbəti tarixi uğuru olduğunu vurğulayıb. Nazir qeyd edib ki, dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri hesab olunan COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin daim artan beynəlxalq nüfuz və qüdrətindən xəbər verir. O, ölkəmizdə təşkil olunmuş digər beynəlxalq səviyyəli tədbirlər kimi, bu mötəbər tədbirin də uğurla keçiriləcəyinə əminliyini ifadə edib.

Sonra nazir COP29-la bağlı ölkəmizə gələcək çoxsaylı qonaqların, tədbirin keçiriləcəyi, eləcə də qonaqların yerləşəcəyi məkanların və ətraf ərazilərin aidiyyəti təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll edilməsinin zəruriliyini bildirib. Bu məqsədlə FHN-də yaradılmış və nazirliyin peşəkar əməkdaşlarından ibarət qərargahın fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıb.

Daha sonra COP29-a hazırlıqla bağlı aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair qərargah üzvlərinin görülmüş işlərlə əlaqədar məruzələri dinlənilib, geniş müzakirə aparılıb.

Müşavirəyə yekun vuran nazir ölkəmizdə keçiriləcək nüfuzlu beynəlxalq tədbirlə əlaqədar Fövqəladə Hallar Nazirliyinin üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün tapşırıqlarını verib.

# Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları Moskvada uşaq evində olublar

**Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşları Moskvanın "Bizim Ev" ailə tərbiyəsinə dəstək mərkəzində olublar. Orada valideyn himayəsindən məhrum uşaqlar üçün rəsm müsabiqəsi təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Moskvada yerləşən "Bizim Ev" ailə tərbiyəsinə dəstək mərkəzi qapılarını valideyn himayəsindən məhrum olan sağlam uşaqlarla yanaşı, fiziki və zehni inkişafdan geri qalan körpələrin də üzünə açıb. Mərkəzin rəhbərliyi Heydər Əliyev Fondunun, fondun vitse-prezidenti Leyla Əliyevanın daimi qayğısından, uşaq evinə olan diqqətindən danışıb. Bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva dəfələrlə burada uşaqlara baş çəkib, onlar üçün bayram tədbirləri təşkil edib.

"Bizim Ev" ailə tərbiyəsinə dəstək mərkəzinin direktoru Vadim Menşov dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirərək deyib: "Heydər Əliyev Fondunun nümayəndələrinin "Bizim Ev"ə hər gəlişi bayramdır. Biz Leyla xanım Əliyevanın sayəsində Heydər Əliyev Fondu ilə dostlaşmışıq. Leyla xanım hər zaman bizə dəstək olur. Onun böyük mənəvi dəstəyi bizim üçün çox dəyərlidir".

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin bölmə rəhbəri Tamilla Əhmədova fondun uşaqlara daim xüsusi qayğı göstərdiyini vurğulayaraq qeyd edib: "Hamımız yaxşı bilirik ki, uşaqlar bizim gələcəyimizdir. Məhz uşaqlar dünyanın gələcəkdə necə olacağını, necə inkişaf edəcəyini müəyyənləşdirəcəklər. Ona görə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə fondun Rusiya nümayəndəliyinin uşaqlara göstərdiyi diqqət və qayğı işimizin çox vacib tərkib hissəsidir".

# Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında görüş keçirilib

**Azərbaycana səfəri çərçivəsində Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabonenin başçılıq etdiyi arxeoloq və ekspertlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovla görüşü olub.**





AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, müxtəlif səviyyələrdə reallaşan qarşılıqlı səfərlərin, o cümlədən 2002-ci ildə Papa II İohann Pavelin, 2016-cı ildə Papa Fransiskin ölkəmizə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın isə Vatikana səfərlərinin həm ikitərəfli əlaqələr, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, imzalanan sənədlərin münasibətlərimizin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Müzakirələr zamanı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin fəaliyyətindən, formalaşmış səmərəli əməkdaşlıqdan, birgə layihələrin icrasından məmnunluq ifadə edilib, hazırda da müştərək layihələr üzərində işlərin uğurla davam etdirildiyi bildirilib. Vurğulanıb ki, Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin fond tərəfindən bərpasının həyata keçirilməsi, mədəni irsin qorunması sahəsində işlərin görülməsi ikitərəfli münasibətlərin dərinləşməsinə töhfədir.

Paskal Yakabone görülən bütün işlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Dini etiqad və vicdan azadlığının tam təmin olunduğu, çoxlu sayda dini icmanın fəaliyyət göstərdiyi, hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şəraitin təmin edildiyi Azərbaycanda digər dini icmalara olduğu kimi, katolik icmaya da göstərilən diqqət, ölkəmizdə kilsə və məbədlərin, o cümlədən katolik kilsələrin bərpası istiqamətində görülən işlər yüksək dəyərləndirilib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov fondun gələcəkdə də Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb.

Görüşdə tarixi və mədəni əhəmiyyət daşıyan abidələrin bərpası istiqamətində təcrübə mübadiləsinin əhəmiyyətinə də nəzər salınıb.

Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabone hər 25 ildən bir Müqəddəs Taxt-Tacda keçirilən və növbəti mərasimin 2025-ci ilə təsadüf etdiyi Müqəddəs Yubiley İli ilə bağlı tədbirə Heydər Əliyev Fondunun da dəvətli olduğunu diqqətə çatdırıb.

# BMT Cenevrə Ofisinin rəhbəri Azərbaycana səfər edib

**BMT-nin Cenevrədəki Ofisinin Baş direktoru Tatyana Valovaya ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ilə görüşüb.**











AZƏRTAC xəbər verir ki, görüşdə Heydər Əliyev Fondu ilə BMT arasında gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, COP29 çərçivəsində iki qurumun birgə fəaliyyətinə dair layihələr müzakirə edilib.

Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un dünyada ekoloji problemlərin həlli baxımından uğurlu nəticələr verəcəyinə, bu tədbirin bəşəriyyət üçün yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək istiqamətində növbəti addım olacağına əminlik ifadə olunub.



Qonaq daha sonra Heydər Əliyev Mərkəzində nümayiş etdirilən sərgilərlə tanış olub.

# Azərbaycan Ordusunda taktiki-xüsusi təlim keçirilir





*Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin şəxsi heyəti ilə mürəkkəb ərazi şəraitində döyüş dəstək vasitələrinin imkan və qabiliyyətlərinin qiymətləndirilməsi, qarşılıqlı əlaqənin təşkili və birgə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə taktiki-xüsusi təlim keçirilir.*



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazirliyin rəhbər heyəti təlimin gedişatını izləmək üçün qoşun növlərinin idarəetmə məntəqələrində olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə edilib ki, müasir idarəetmə sistemlərinin və yüksək texnologiyaların tətbiqi ilə keçirilən təlimdə hərbi qulluqçular tapşırıqları peşəkarlıqla yerinə yetirirlər.

Təlimin keçirilməsində əsas diqqət komanda-idarəetmənin təşkili, o cümlədən komandirlərin qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

# XİN Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Astana görüşü ilə bağlı bəyanat yayıb

**Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Astanada keçirilən görüşünə dair bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə XİN-dən məlumat verilib.

Bəyanatda deyilir: *"3 iyul 2024-cü il tarixində Azərbaycan Prezidenti zati-aliləri İlham Əliyev, Türkiyə Prezidenti zati-aliləri Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri zati-aliləri Şahbaz Şərif Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində Astanada görüşüblər. Üçtərəfli Zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan arasında münasibətlər, həmçinin Qəzza, Kipr, Kəşmir, İslamofobiya kimi regional və qlobal məsələlər müzakirə olunub. Daha öncə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində parlament spikerləri və xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşlərin, həmçinin dövlət başçıları səviyyəsində təşkili nəzərdə tutulur. Habelə üç ölkə arasında əməkdaşlıq imkanlarını inkişaf etdirmək üçün ortaq niyyət təsdiqlənib. Azərbaycan-Türkiyə-Pakistan arasında üçtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyinə dair razılıq ifadə olunub. Üç ölkə suverenlik və ərazi bütövlüyü prinsiplərinə uyğun olaraq münaqişələrin həllində müvafiq ölkələr arasında dialoqun prioritetləşdirilməsini dəstəklədiklərini bildiriblər. Transmilli təhdidlərə, xüsusilə terrorizmə qarşı mübarizədə üç ölkə arasında əməkdaşlığın və bu məsələnin birgə həllinin vacibliyi də bir daha təsdiqlənib. Üçtərəfli əməkdaşlıq prosesi çərçivəsində növbəti görüşlər hər üç ölkədə, yəni Azərbaycan, Türkiyə və Pakistanda keçiriləcək".*

# *XİN:* "İQAK-ın Azərbaycanla bağlı ictimai bəyanatı hüquqi baxımdan sual yaradır"

"İyulun 3-də Avropa Şurasının İşgəncənin və Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) Azərbaycanla bağlı ictimai bəyanatın dərc olunması barədə qərar qəbul etməsi bizi dərindən təəssüfləndirdi. İQAK həmçinin "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konversiyasının tələbinə zidd olaraq Azərbaycanın müvafiq razılığı alınmadan 2022-ci ildə edilmiş xüsusi səfərinin yekunları üzrə hazırlanmış hesabatı tam şəkildə dərc etmək barədə əvvəllər presedenti olmayan qərar qəbul edib. Bu yanaşma ədalətsiz və əsassızdır, habelə hüquqi baxımdan sual yaradır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa Şurasının İşgəncənin və Qeyri-insani, yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) ictimai bəyanatına dair şərhində yer alıb.

Mətbuat katibi bildirib ki, 2002-ci ildən etibarən İQAK bir neçə dəfə ölkəmizə dövri və xüsusi səfər həyata keçirib, Konvensiyanın Azərbaycan tərəfindən reallaşdırılmasına dair hesabatlar dərc edib. Azərbaycan hesabatlarda qeyd olunan hər bir müddəa üzrə hökumətin mövqeyini təqdim edib. Bununla yanaşı, ictimai bəyanatda da qeyd edildiyi kimi, müvafiq çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti üzrə addımlar atılıb və komitənin tövsiyələri hər zaman nəzərə alınıb.

Əməkdaşlıq müddətində komitəyə bu günə qədər etdiyi səfərlər zamanı lazımi dəstək göstərilib. Yerli təhqiqatların aparılmasına dəstək göstərilməsi ilə yanaşı, nümayəndə heyəti üzvlərinin mümkün ən yüksək səviyyədə qəbul olunmasını təmin etmək üçün addımlar atılıb və əməkdaşlığın əsaslarının möhkəmləndirilməsi üçün bütün səylər göstərilib.

"Bu qərarın 2024-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini ratifikasiya etməmək barədə qərəzli qərarından sonra yaranmış Azərbaycan-Avropa Şurası münasibətlərində mövcud vəziyyətin fonunda qəbul olunması xüsusilə təəssüf doğurur. Biz bir sıra dövlət qurumları ilə konstruktiv əməkdaşlığın əvəzinə, məsuliyyəti onların üzərinə yıxan sözügedən ictimai bəyanatdakı tənqidləri rədd edirik.

Azərbaycan azadlıqdan məhrum edilmiş şəxslərin müdafiə olunması ilə yanaşı, müvafiq təcrübənin ümumi qəbul edilmiş standartlara uyğunlaşdırılması sahəsində əhəmiyyətli irəliləyiş əldə etməkdədir", - deyə A.Hacızadə vurğulayıb.

# Konstitusiya Məhkəməsində və Ali Məhkəmədə İraq Respublikasının Ali Məhkəmə Şurasının nümayəndə heyəti ilə görüş keçirilib

İyulun 4-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində ölkəmizdə rəsmi səfərdə olan İraq Respublikasının Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Görüşdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edilib ki, bu səfər Azərbaycan üçün tarixi hadisələrin cərəyan etdiyi dövrə təsadüf edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Azərbaycan torpaqlarında Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsi bərpa edilib və bu il sentyabrın 1-də ilk dəfə həmin ərazilərdə Milli Məclisə seçkilər keçiriləcək.

İraq Respublikasının Ali Məhkəmə Şurasının sədri Faiq Zidan ətraflı məlumata və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O qeyd edib ki, rəsmi səfərin məqsədi məhkəmə sahəsində əlaqələrin qurulması və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsidir. Qonaq iki ölkə arasında məhkəmə-hüquq əməkdaşlığının vacibliyinə toxunaraq İraq Respublikasında konstitusiya ədalət mühakiməsini həyata keçirən Federal Ali Məhkəməsinin, təmsil etdiyi ölkənin məhkəmə orqanlarının fəaliyyətinin istiqamətləri və praktiki işindən bəhs edib.

Tərəflər arasında geniş fikir mübadiləsi aparılıb, məhkəmə-hüquq əməkdaşlığının gücləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

* * *

İyulun 4-də Azərbaycan Respublikası Ali Məhkəməsinin dəvəti ilə ölkəmizdə səfərdə olan İraq Respublikasının Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın başçılıq etdiyi nümayəndə heyəti ilə Ali Məhkəmədə görüş keçirilib.

Ali Məhkəmənin Mətbuat xidmətindən bildirilib ki, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov ölkəmizin məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Məhkəmə sistemində yeni informasiya texnologiyalarından istifadə edildiyi, hakim vəzifəsinə seçim prosedurlarının müasir standartlara uyğunlaşdırıldığı, qanunvericiliyin təkmilləşdirildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, hazırda məhkəmələrin müasir tələblərə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması, məhkəmə-hüquq sistemləri arasında əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi zamanın tələbidir.

Nümayəndə heyətinin rəhbəri Faiq Zidan ikitərəfli əlaqələri yüksək qiymətləndirib, iki ölkə arasında məhkəmə-hüquq sahəsində münasibətlərin daha da genişlənməsi üçün imkanların olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycanda məhkəmə fəaliyyətinin təşkilati-hüquqi təminatının, müsbət təcrübəsinin öyrənilməsi xüsusi önəm daşıyır.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

Sonra qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olublar.

# İraqın Ali Məhkəmə Şurasının sədri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə səfərdə olan İraq Respublikasının Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın başçılıq etdiyi nümayəndə heyəti iyulun 4-də Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.**





AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib.

Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər, "Əbədi məşəl" abidəsinin önünə isə əklil qoyulub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Ədliyyə naziri İraqın nümayəndə heyəti ilə görüşüb



**Ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan İraq Respublikası Ali Məhkəmə Şurasının sədri Faiq Zidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyindən məlumat verilib. Nazir ölkələr arasında həm ikitərəfli, həm də beynəlxalq müstəvidə əməkdaşlığın inkişaf etdirildiyini vurğulayıb. Fərid Əhmədov ölkəmizdə elektron məhkəmə və elektron icra sisteminin tətbiq edilməsi, hakimlərin hazırlığı və ədliyyə sahəsində görülən digər işlər barədə məlumat verib. Nazir qeyd edib ki, iki ölkə arasında hüquqi sahədə əlaqələrin inkişafı üçün geniş imkanlar var. İraq nümayəndə heyətinin rəhbəri Faiq Zidan səmimi qəbula görə öz minnətdarlığını ifadə edib. Bu səfərin ölkələr arasında hüquqi sahədə həyata keçirilən ilk səfər olduğunu vurğulayan qonaq məhkəmə və ədliyyə sahəsində əməkdaşlığın qurulmasında, eləcə də ölkəmizin təcrübəsinin öyrənilməsində qarşılıqlı səfərlərin vacibliyini qeyd edib. Həmçinin görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokurorluqda İraqın Ali Məhkəməsinin sədri və baş prokuroru ilə görüş



**İyulun 4-də baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İraq Respublikası Ali Məhkəmə Şurasının sədri cənab Faiq Zidan və Dövlət Prokurorluğunun sədri Nacmu Abdullah Əhməd ilə görüşüb.**

Qonaqları salamlayan baş prokuror geniştərkibli nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla İraq arasında hüquqi əməkdaşlığın uğurlu başlanğıcı kimi qiymətləndirib.

Kamran Əliyev hər iki dövlətin prezidentlərinin birgə səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində ölkələrimiz arasında münasibətlərin dinamik şəkildə inkişaf etdiyini bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Baş prokuror cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək iraqlı həmkarlarını tədbirdə iştiraka dəvət edib.

Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Faiq Zidan iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, hüquq-mühafizə orqanları arasında cinayətkarlığa xüsusilə də terrorçuluqla mübarizə sahəsində qarşılıqlı səmərəli əməkdaşlığın aparılmasının vacibliyini ifadə edib.

Tərəflər əlaqələrin möhkəmləndirilməsi istiqamətində müqavilə hüquq bazasının genişləndirilməsini müzakirə ediblər.

Görüşdə İraq Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Maki Resan Abdulla Əl-Mamori də iştirak edib.

# BİZİM TÜRK AİLƏMİZ DÜNYASIDIR



# Geniş coğrafiya, böyük potensial, real güc

## Bu gün Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü öz işinə başlayır

**Türk dünyasının birliyi istiqamətində aparılan fəaliyyət Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirməkdədir. Hazırda türk dünyası getdikcə artan əhalini və əhali tərkibində gəncliyin üstünlüyünü, zəngin təbii sərvətləri, şaxələnmiş nəqliyyat yollarını, türkdilli ölkələr arasında tarixi-mənəvi bağları birləşdirən geniş bir coğrafiyanı əhatə edir. Ona görə də hər bir toplantı, hər bir sammit, konfrans məhz bu məqsədlərə doğru atılan addımdır.**

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Şuşada öz işinə başlayan Zirvə görüşü türk dövlətləri arasında növbəti davamlı təmaslara, birliyimizin möhkəmləndirilməsinə müsbət təsir göstərəcək. Zirvə görüşünün proqramı da açıqlanıb. "Nəqliyyat bağlantısı və iqlim fəaliyyəti vasitəsilə davamlı gələcəyin qurulması" mövzusunda keçirilən nüfuzlu tədbir təşkilatın əsas məsələləri və gündəliyi üzrə yüksəksəviyyəli müzakirələr üçün platforma rolunu oynayacaq. Beləliklə, Şuşa görüşü də bu istiqamətdə önəmli addım olacaq, həm türk dünyasının gücünü, birlik və bir-birinə dəstək əzmini, eyni zamanda xoş niyyətlərini göstərəcək.

Tarixin yeni nizamı, son illər dünyada baş verən proseslərin axarı, böyük dövlətlərin heç bir mənəvi meyar gözləmədən hegemonluq iddiası ilə sərgilədikləri davranışlar planetimizdəki bütün xalqların və ümumən bəşəriyyətin gələcək taleyi barədə düşünən yeni güc mərkəzlərinin yaranmasını labüd edir. Bu baxımdan, çox geniş bir coğrafiyanı və insan potensialını əhatə edən türkdilli ölkələrin Türk Dövlətləri Təşkilatı (TDT) adı altında bir araya gələrək getdikcə qlobal proseslərə təsir imkanlarını genişləndirməsi təbii prosesdir.

TDT-nin əsas inkişaf mərkəzləri rolunda çıxış edərək son onilliklərdə bir-birinə qarşılıqlı dəstəyi, inam və güvəni ilə təkcə türk dünyası deyil, bütün bəşəriyyət üçün nümunə yaradan Azərbaycan və Türkiyə böyük bir tarixi missiya yerinə yetirir. Azərbaycan Prezidenti İlham Əliyev illər öncə "XXI əsr türk dünyası əsri olmalıdır" - deyə bəyan edəndə bu, bəlkə də çoxlarımıza xoş bir arzu kimi gəlirdi. Yeni tarixi reallıqlar isə Azərbaycan liderinin gələcəyi onillər əvvəl gördüyünü, xatırladığımız bəyanatında türk dünyasının birliyinə doğru əldə edilmiş bugünkü nəticələrin müjdəsini verdiyini, türkdilli dövlətlərin Türk Dövlətləri Təşkilatı altında əsrimizin həqiqətən "Türk dünyası əsri"nə çevrilməsi istiqamətində uğurla irəlilədiklərini göstərir.

### "Bizim ailəmiz türk dünyasıdır"

Vətən müharibəsindəki qələbəmiz nəticəsində ərazi bütövlüyümüzün bərpasından sonra daxil olduğumuz yeni strateji dövrdə də Azərbaycan türk dünyasının birliyi naminə çalışmağı yürütdüyü siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. 2024-cü il fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində türk dünyası ilə əməkdaşlığın önəmini bir daha bəyan edib: "Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik".

### Sülh, əməkdaşlıq niyyətli birlik

Türk dünyasının inteqrasiyası Azərbaycan üçün sadəcə bəyanatlarla çıxış etmək deyil, müxtəlif sferalarda həyata keçirilən və türkdilli ölkələri addım-addım bir-birinə daha da yaxınlaşdıran, müxtəlif tərəfdaşlıqlarla sıx bağlayan konkret layihələr, tədbirlərdir. Eyni zamanda türk dövlətləri arasında müxtəlif formatlarda yaranan ortaq müzakirə platformalarıdır.

İyunun 15-də Milli Qurtuluş Günü və Azərbaycanla Türkiyə arasında Şuşa bəyannaməsinin imzalanmasının ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı əsasında Şuşada təşkil edilmiş beynəlxalq konfrans bunun örnəklərindən oldu. Konfrans "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusuna həsr edilmişdi.

Məlum olduğu kimi, getdikcə güclənən Türk Dövlətləri Təşkilatı qlobal təsir imkanlarını genişləndirir. Hazırda bu təşkilat təkcə üzv ölkələr arasında deyil, həm də regional səviyyədə mühüm aktordur. Mərkəzi Asiya, Qafqaz və Avropa arasında körpü rolunu oynayan Türk Dövlətləri Təşkilatı bu coğrafiyaların inteqrasiyasını və əməkdaşlığını təşviq edir. Beynəlxalq təşkilatlarla qurulan əlaqələr və birgə layihələr türk dünyasının beynəlxalq arenada daha fəal rol oynamasına şərait yaradır.

Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq məsələlərini də təşviq edən TDT üzv ölkələr arasında bu sahələrdə əlaqələrin möhkəmləndirilməsi istiqamətində çalışır. Birgə təlimlər, təhlükəsizlik konfransları və terrorla mübarizə mövzularında məlumat mübadiləsi kimi fəaliyyətlər regional sabitliyin təmin edilməsinə mühüm töhfələr verir.

Ən mühüm məqam isə bundan ibarətdir ki, Türk Dövlətləri Təşkilatının fəaliyyəti başqa ölkələrin maraqlarına qarşı yönəlməyib. Bu qurumda bir araya gələn türk ölkələrinin məqsədi yeni bir güc mərkəzi timsalında dünya üçün problemlər, yeni konfliktlər yaratmaq deyil. Əksinə, siyasi əməkdaşlığın, imkanlardan birgə istifadə səylərinin gücü ilə mövcud problemlərin aradan qaldırılmasına çalışmaqdır. Türk Dövlətləri Təşkilatı siyasi əməkdaşlıq və diplomatiya prinsipləri üzərində bərqərar olub. Bu qurum həm üzv ölkələr, həm də də təşkilata üzv olmayan dövlətlər arasında siyasi dialoqu, əməkdaşlığı təşviq edən mühüm platformadır. Türk Dövlətləri Təşkilatı ümumi xarici siyasət strategiyalarını inkişaf etdirərək beynəlxalq arenada daha güclü söz sahibi olmağı, beləliklə də bəşəriyyəti təhdid edən bir çox müşkül məsələlərin həllinə nail olmağı hədəfləyir. Bu kontekstdə həm şuranın təşkil etdiyi mütəmadi zirvə toplantıları və görüşlər, həm də bu günlər Şuşada təşkil edilmiş beynəlxalq konfrans kimi tədbirlər üzv ölkələr arasında siyasi əlaqələrin güclənməsinə, bir çox regional problemlərin ortaq anlayışla həllinə imkan yaradır.

### Güclənən təşkilat

Bu sirr deyil ki, tarixən də, müasir dünyamızda da bir çox məsələlərdə iqtisadi amillər həlledici rol oynayıb və yenə oynamaqdadır. Ona görə təbii ki, türk dünyasının birliyində iqtisadi əməkdaşlıq məsələləri əsas aparıcı istiqamətlərdən biri kimi diqqəti çəkir. Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında iqtisadi əməkdaşlığı artırmaq üçün müxtəlif təşəbbüslər irəli sürülür. Ticarət həcminin artırılması, investisiya imkanlarının qiymətləndirilməsi və birgə layihələrin həyata keçirilməsi kimi məsələlər üzərində iş aparılır. Bu məqsədlə mütəmadi şəkildə biznes-forumlar, iqtisadiyönümlü tədbirlər təşkil edilir, qurumda bir araya gələn ölkələr arasında qarşılıqlı anlaşmalar, sazişlər imzalanaraq icraya yönəlir. Türk dövlətləri arasında enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlıq iqtisadi inkişafı dəstəkləyən mühüm addımlardır. Türkdilli ölkələr qeyd edilən sahələrdə də çox böyük potensiala malikdir. Azərbaycan bu potensialı realizə etmək üçün bütün imkanlardan istifadə etməyə çalışır. Son illər Türk Dövlətləri Təşkilatındakı ölkələrin dövlət rəhbərlərinin Azərbaycana, Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkələrə rəsmi səfərləri, imzalanan sənədlər, təməli qoyulan yeni layihələr, ayrı-ayrı türk dövlətlərinin Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq proseslərinə qardaşlıq töhfələri bunun xoş örnəkləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu xüsusda demişdir: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

### Ortaq keçmişdən ortaq gələcəyə

Türk dünyası zəngin tarixi və mədəni irsə malik geniş bir arealı əhatə edir. Orta Asiyadan Anadoluya, Sibirdən Balkanlara qədər uzanan bu geniş ərazidə tarixboyu fərqli siyasi sərhədlər və idarəçilik sistemləri altında yaşasalar da, tarix, dil və mədəniyyət ümumiliyi bu gün də türk xalqlarını qırılmaz şəkildə bir-birinə bağlayır.

Türk xalqlarının birliyi köklərini dərin keçmişdən götürür. Tarixin ən qədim çağlarından türklər böyük bir coğrafiyada çox güclü dövlətlər qurmuşlar. Hunlar, Göktürklər, Səlcuqlar və Osmanlılar türk birliyinin tarixi nümunələridir. Bu dövlətlər təkcə siyasi və hərbi qüdrətləri ilə deyil, həm də mədəni və elmi sahələrdə bəşəriyyət tarixinə mühüm töhfələr vermişlər. "Orxon-Yenisey" kitabələri, "Kitabi-Dədə Qorqud" dastanları, "Manas" eposu, minlərlə ədəbi-mədəni irs, eyni milli-mənəvi dəyərlərimiz ortaq tarixi keçmişimizin misilsiz inciləridir.

Bu baxımdan türk dünyasının birliyi çərçivəsində ortaq mədəni irsin qorunması və təbliği istiqamətində də mühüm işlər görülür. Dil, tarix və mədəniyyət sahələrində həyata keçirilən layihələr türklərin bir-birini daha yaxından tanımasına, ortaq dəyərlər ətrafında birləşməsinə kömək göstərir. Ortaq dil və tarix kitabları, mədəniyyət festivalları və maarifləndirici proqramlar bu sahədə mühüm fəaliyyətlərdir. Bundan əlavə, gənc nəsilləri bir araya gətirmək üçün universitetlər arasında tələbə mübadiləsi proqramları və birgə akademik layihələr təşviq edilir. Beləliklə, ortaq dil və tarix, təhsil layihələri və mədəni mübadilə proqramları vasitəsilə yeni nəsillər arasında güclü bağlar qurulur. Bundan əlavə, enerji qaynaqları və ticarət yolları kimi strateji sahələrdə əməkdaşlıq türk dünyasının qlobal arenada daha təsirli olmasına töhfə verir. Siyasi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində əməkdaşlıq üzv ölkələrə ümumi baxış ətrafında birləşməyə və birlikdə daha güclü şəkildə hərəkət etməyə imkan yaradır.

Azərbaycanın mövqeyi belədir ki, Türk Dövlətləri Təşkilatının rolu təkcə günün tələblərinə cavab verməklə məhdudlaşmamalı, həm də gələcək potensial əməkdaşlıq və tərəfdaşlıqları əhatə edəcək şəkildə genişləndirilməlidir. Bu çərçivədə üzv ölkələr arasında həmrəyliyin və qarşılıqlı etimadın daha da gücləndirilməsi türk dünyasının birlik və bərabərlik içində daha parlaq gələcəyə doğru irəliləməsinə şərait yaradacaq. Birgə elmi araşdırmalar, texnologiya transferləri və innovasiya layihələri türk dünyasının qlobal rəqabət qabiliyyətini artıracaq.

Türk dünyasının birliyi tarixi köklər üzərində daim yenilənməli, zaman-zaman daha da möhkəmlənməlidir. Bu birlik təkcə türk xalqlarının rifahına deyil, həm də dünyada sülhə, sabitliyə, dayanıqlı inkişafa mühüm töhfə olmalıdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Türk dünyasının diqqəti yenidən Şuşaya yönələcək

**Dünyanın ən qədim xalqlarından olan türklər min illər boyu geniş coğrafi ərazilərdə yaşayıblar. Məskunlaşdıqları hər yer bu gün müxtəlif dövrlərin, ayrı-ayrı əsrlərin yadigarları olan ölkə və dünyaəhəmiyyətli abidələrin zənginliyi ilə diqqəti cəlb edir. Çünki türkəsilli xalqlar tarix, mədəniyyət yaratmaqla yanaşı, onu yaşatmağı, qoruyaraq nəsildən-nəslə ötürməyi də bacarıblar.**

Güclü dövlət qurmağa qadir olan türk xalqlarının tarixi Böyük Hun İmperatorluğu, Göytürk xaqanlığı, Böyük Səlcuq İmperiyası, Osmanlı İmperiyası, Səfəvilər kimi qüdrətli dövlətləri ilə şanlı, şöhrətli olub. Türklər həm də tarixboyu dünya dövlətlərinin siyasətinə, mədəniyyətinə, iqtisadiyyatına böyük, həlledici təsir göstərə biliblər.

Türk dövlətlərinin birliyi məsələsi əsrlər idi ki, türkəsilli xalqları düşündürürdü. Qabaqcıl övladları bu istiqamətdə cani-könüldən çalışır, fikir mübadilələri, müzakirələr aparırdılar. Hələ XIX əsrin sonlarında böyük söz və fikir adamı İsmayıl bəy Qaspıralının "Dildə, işdə, fikirdə birlik" ideyası türk dünyasının mənəvi hədəfi oldu. XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycanın Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqa görkəmli ziyalıları türk dünyasının sıx birləşməsinə böyük səylər göstərdilər.

XXI əsrdə türk dövlətlərinin, türkəsilli xalqların bir araya gəlməsi əhəmiyyətli məsələ kimi qarşıda dayanmışdı. Türk Dövlətləri Təşkilatı (TDT) da məhz dünya sivilizasiyasına böyük töhfələr vermiş, bəşəriyyətə dahi alimlər, mütəfəkkirlər bəxş etmiş, çoxlu şan-şöhrətli dövlətlər, imperiyalar yaratmış türk xalqlarının dövrümüzdə qloballaşma fonunda etnik köklərini unutmamaları, öz mədəniyyətlərinə sahib çıxmaları, qorumaları böyük əhəmiyyət kəsb etdiyi, hərtərəfli əməkdaşlığın yaranması və möhkəmlənməsi labüd olduğu bir vaxtda, 2009-cu ilin oktyabrında Naxçıvanda yaradıldı.

Qeyd edək ki, türk dövlətlərinin ilk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirildi. IX Türkdilli Ölkələr Dövlət Rəhbərləri Zirvəsi 2009-cu il oktyabr 3-də Naxçıvan şəhərində təşkil olundu. Evsahibliyi etdiyimiz tədbirə Türkiyə Prezidenti Abdullah Gül, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkmənistan Prezidenti köməkçisi Xıdır Saparliyev qatıldılar. Zirvə görüşünü açan Prezident İlham Əliyev olduqca vacib bir məqama diqqət çəkdi. "Bizim birliyimiz təkcə ölkələrimizi gücləndirmir, bizim birliyimiz böyük mənada regional əməkdaşlığın da çox vacib amilidir", - deyə dövlətimizin başçısı bildirdi.

Naxçıvanda keçirilən Zirvə görüşündə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indiki Türk Dövlətləri Təşkilatı) yaradılması haqqında Naxçıvan Sazişini imzaladılar. İştirakçı dövlətlər arasında əməkdaşlığın yüksəldilməsi müqavilənin əsas məqsədi idi. Naxçıvan Sazişi ilə türk dövlətlərinin təşkilatlanması özünün yeni mərhələsinə qədəm qoydu. Sazişin imzalandığı gün - 3 oktyabr Türkdilli Ölkələrin Əməkdaşlıq Günü elan edildi.

Türk dövlətləri birliyinin sıraları ildən-ilə genişlənir. Təşkilat yarandığı zaman onun dörd üzv ölkəsi vardı. Azərbaycan Respublikası təşkilatın 4 təsisçi ölkəsindən biridir. Hazırda təşkilatın 5 üzv dövləti var: Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusa malikdir.

Naxçıvanda təşkil olunmuş Zirvə görüşündən sonra Türk Dövlətləri Təşkilatı böyük inkişaf yoluna qədəm qoydu. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı adı altında ötən il noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündəki çıxışında etnik və mədəni köklərimizin, dilimizin, ortaq keçmişimizin münasibətlərimizin təməlini təşkil etdiyini vurğuladı: "2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir".

Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində söylədi ki, biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik: "Bu, bizim üçün prioritetdir".

Regional və beynəlxalq güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan ölkələrin liderlərinin iştirakı ilə iyulun 5-6-da Şuşa şəhərində sammitin keçirilməsi daha bir tarixi hadisəyə çevriləcək. Beləliklə, bu dəfə türk dünyasının diqqəti yenidən şanlı tariximizin bir parçası olan Şuşaya yönələcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




## *Muxtar BABAYEV:* "Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik"

**"Ətraf mühit, sosial və idarəetmədə (ESG), o cümlədən dayanıqlı inkişafda özəl sektorun öz ambisiyalarını yüksəltməsi və kollektiv tərəqqimiz üçün davamlılıq öhdəliklərini sürətləndirməsi lazımdır".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev "Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı" mövzusunda keçirilən "Ətraf mühit, sosial və idarəetmə" sammitində videobağlantı zamanı deyib.

"Biz birgə işləməklə dövlət və özəl qurumların ESG-nin həyata keçirilməsində anlayışlar, strategiyalar və ən yaxşı təcrübələri paylaşa biləcəyi əməkdaşlıq mühitini inkişaf etdirmək səylərini dəstəkləyə bilərik. Ortaq problemlərimiz üçün işlək həll yolları tapılması məqsədilə özəl sektora ehtiyacımız var. Biz maliyyə planları, büdcələri və hədəfləri ilə dəstəklənən etibarlı keçid yollarını qəbul etməliyik. Ümid edirik ki, şirkətlər kapitalı necə bölüşdürdükləri və investisiya qərarlarının iqlim məqsədlərimizə uyğun olmasını necə təmin etdiklərini göstərə biləcək şəkildə COP29-a hazır gələ bilərlər.

İqlimə müsbət təsir göstərən iqtisadi modellər yarada bilmək məqsədilə "yaşıl kapital" bazarlarını dərinləşdirmək üçün maliyyə xidmətləri sənayesinə ehtiyacımız var", - deyə M.Babayev qeyd edib.

## Vladanka Andreyeva "29 İqlim söhbəti: COP29-a gedən yol" təşəbbüsünün səmərəliliyindən danışıb

**"Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı" mövzusunda "Ətraf mühit, sosial və idarəetmə" (ESG) sammiti BMT-nin Azərbaycanda "29 İqlim söhbəti: COP29-a gedən yol" çərçivəsində keçirilən sayca 15-ci tədbiridir.**

Bu barədə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva "Dayanıqlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı" mövzusunda "Ətraf mühit, sosial və idarəetmə" (ESG) sammitində deyib.

"29 İqlim söhbəti: COP29-a gedən yol" təşəbbüsümüz ümummilli dialoqa, eləcə də iqlim dəyişikliyi və ədalətli keçid üzrə tədbirlərə təşəbbüs göstərməkdir", - deyə V.Andreyeva vurğulayıb.

Onun sözlərinə görə, hökumət, özəl sektor, qeyri-hökumət təşkilatları və akademik dairələrin nümayəndələri arasında bu cür görüş - söhbətlər COP29-un məqsədlərinin başa düşülməsini asanlaşdıracaq və iqlim dəyişikliyi ilə bağlı problemlərin təcili həlli ilə bağlı operativ şəkildə lazımi tədbirlərin görülməsinə kömək edəcək.

# Azərbaycan ekoloji böhrana qarşı mübarizədə də nümunə göstərir

**Yaşıl rəng həyat rəmzidir. Fəza tədqiqatlarında - istər Yer kürəsindən, istərsə də kosmosdan müşahidələrdə də uzaq qalaktikalarda bu rəngə bənzər çalarlar tapan mütəxəssislər canlı, yaşayış əlamətləri barədə nikbin notlara köklənirlər. Yəqin planetimizi kənardan seyr edənlər də (yeri gəlmişkən, artıq paralel sivilizasiyaların mövcudluğu elmi müddəalarla təsdiqlənir) haqqımızda belə qənaətə gəlmişlər.**



Lakin çox təəssüf ki, ümumi evimiz olan bu dünyanın rəngi tədricən qaralır, münbit torpaqlar get-gedə səhralaşır, zəngin flora və fauna örtüyü məhv olur, yaşıllıqlar yoxa çıxır. O üzdən mütərəqqi dövlətlər, beynəlxalq qurumlar, ekoloqlar həyəcan təbili çalırlar.

Qlobal fəlakətə qarşı səsini qaldıran, bəşəriyyətin xilasına çalışan, bu istiqamətdə layiqli töhfələr vermək istəyən ölkələrdən biri də Azərbaycandır. Təsadüfi deyil ki, dövlətimizin başçısı İlham Əliyev tərəfindən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyimiz isə, Prezidentin təbirincə desək, beynəlxalq ictimaiyyətin rəsmi Bakıya böyük inam və etimadının təzahürüdür: "COP29-a gəldikdə isə bu, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana olan böyük ehtiramın və dəstəyin göstəricisidir və biz hazırlığın fəal mərhələsindəyik. Bizim bir ildən az vaxtımız var idi və yaxşı nəticələr əldə etmək üçün biz olduqca fəal və səmərəli çalışmalıyıq. Əlbəttə, bizim üçün COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir".

Amma Azərbaycanda ekoloji problemlərlə mübarizəyə bundan xeyli əvvəl başlandığı da faktdır. Cari il aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusundakı beynəlxalq forumda iştirakçıların suallarını cavablandıran cənab İlham Əliyev bildirmişdi ki, müstəqillikdən əvvəl, Sovet İttifaqı, çar Rusiyası dövründə enerji resurslarımız ətraf mühitə heç bir diqqət yetirilmədən istismar olunurdu. Məhz bu minvalla Bakı dünyanın ən çirklənmiş şəhərlərinin birinə çevrilmişdi: "Bizdə neft gölləri, neft sızıntıları var idi. Biz ekoloji fəlakət olan bu dəhşətli mirası təmizləmək üçün yüz milyonlarla, hətta milyardlarla dollar xərcləmək məcburiyyətində qalmışdıq. İndi Bakıda gördüklərinizin 10 il, 20 il bundan əvvəl hansı vəziyyətdə olduğunu heç təsəvvürünüzə belə gətirə bilməzsiniz. Çünki çoxlu rekultivasiya, çoxlu təmizləmə işlərini icra etdik və ekoloji cəhətdən təmiz olan bir çox təşəbbüsləri həyata keçirdik. İndi isə COP29-un sədri olaraq bizim üzərimizdə olan məsuliyyət səviyyəsi əlbəttə ki, artmaqdadır. Çünki birincisi, biz sədrliyimizə çox ciddi yanaşırıq, ikincisi, biz diqqət mərkəzindəyik".

Ətraf mühitə atılan zərərli qaz emissiyalarının, flora və faunaya vurulan ziyanın bumeranq effekti yaratması məlum faktdır. İndiyə qədər dəfələrlə müşahidə etmişik ki, ətraf mühitə kortəbii müdaxilənin əks-təsirləri özünü çox gözlətmir, təbiət dözməyib bir gün qisasını alır. Yer kürəsində qlobal istiləşmənin, ozon qatının zəifləməsi üzündən radioaktiv şüalanmaya məruz qalmağımızın, günəşdəki maqnit qasırğalarının qorxulu təzahürlərinin, yayılan müxtəlif epidemiyaların fəsadlarını yaşamırıqmı?! Amma bunlar da hələ hamısı deyil. Məlumat verilir ki, bir çox ölkələr mütəmadi şəkildə elektrik kəsintiləri ilə üzləşirlər və enerji təchizatındakı fasilələr böyük narahatsızlıq yaradır. Balkan yarımadasından tutmuş, Yaxın Şərq və Afrikaya qədər sözügedən problem bu il daha kəskin xarakter alıb. Səbəb isə qlobal istiləşmənin elektrik şəbəkələrinə mənfi təsiridir. İsti hava dalğaları və ekstremal hava şəraiti üzündən təzyiq altında olan və üstəlik daha çox yüklənən elektrik şəbəkələri sıradan çıxır. Yaxın Şərq ölkələrində bu səbəbdən enerjinin verilməsində qrafik tərtib olunub. İraqda iş saatları azaldılıb, əhalini elektrik kəsintilərindən qorumaq üçün fövqəladə vəziyyət elan edilib. Küveyt hökuməti isə elektrik enerjisindən istifadəni məhdudlaşdırıb. Monteneqro, Bosniya və Herseqovina, Albaniya və Xorvatiyada da elektrik enerjisinin verilməsində baş verən böyük fasilələr gündəlik həyat ritmini pozub.

Göründüyü kimi, iqlim dəyişikliyinin fəsadları öncədən proqnozlaşdırılsa da, kifayət qədər gözlənilməz sürprizlərlə doludur. Alimlər bildirirlər ki, atmosferin sürətlə və amansızcasına çirkləndirilməsinin yaratdığı problemlər saysızdır və hər gün bu siyahıya yeni-yeni fəsadlar əlavə edilir. Bu isə nəinki yoxsul, hətta zəngin ölkələrdə belə, normal həyat ritmini pozur. Ona görə də Prezident İlham Əliyevin söylədiyi bu fikirlərə ciddi diqqət yetirmək lazımdır: "Əlbəttə ki, iqlim məsələləri ilə bağlı fikir ayrılığının bir səbəbi inkişaf etmiş, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin məsuliyyətidir. Bu ortaq məsuliyyət ədalətli olmalı və əlbəttə ki, iqlim problemlərinə mənfi təsir açıq şəkildə müzakirə edilməlidir. Hesab edirik ki, bu əlaqələrə, həmçinin bir çox Avropa ölkələri ilə yaxşı əlaqələrə malik olmaqla biz koordinator və ya körpü rolunu oynaya bilərik. Eyni zamanda neft və qazla zəngin olan ölkə kimi bu, bizə neft və qaz hasil edən ölkələrlə qarşılıqlı əlaqədə olmaq, neft və qazla zəngin olan ölkələr üçün məsuliyyət platforması yaratmaq imkanını verir. Çünki Azərbaycan da daxil olmaqla, bu ölkələr ciddi addımlar atmalıdırlar. Biz bunu OPEC+ adlanan platformada artıq nümayiş etdirmişik... İdeyalarla bağlı bizim başqa planlarımız da var, lakin ola bilsin ki, onları açıqlamaq hələ bir az tezdir. Lakin biz sədrliyə özümüzü nümayiş etdirmək, ölkəmizi təqdim etmək fürsəti kimi baxmırıq. Baxmayaraq ki, bu məsələ də vacibdir. Biz buna beynəlxalq arenada ən təxirəsalınmaz məsələnin praktiki həllinə töhfə vermək imkanı kimi baxırıq".

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***



# "Bakıda küləklər əsir"

## İndi bu küləklər təkcə toz qoparmır, həm də enerji verir

**Ən geniş yayılmış təmiz və bərpaolunan enerji növlərindən biri külək enerjisidir. Bu enerji küləyin gücündən, yəni hava axınlarının kinetik enerjisinin elektrik enerjisinə çevrilməsindən əldə edilir. Kinetik enerji cismin, yaxud da zərrəciyin öz hərəkəti hesabına malik olduğu enerjiyə deyilir. Həmin enerjini yararlı elektrik enerjisinə çevirmək üçün isə külək turbinindən istifadə edilir.**

Külək enerjisindən optimal istifadə üçün küləkli ərazilərdə çoxlu sayda turbinlərdən ibarət böyük miqdarda elektrik enerjisi istehsal etməyə imkan verən külək-elektrik stansiyaları (KES) qurulur. Bu gün dünyada istifadə olunan külək enerjisi həm qurudan, həm də dənizdən əldə olunur. Doğrudur, güclü küləklər bəzən fəlakətlərə yol açır, amma zaman onun çox gərəkli olduğunu da gündəmə gətirib.

Avstraliya dünyada küləklər ölkəsi kimi tanınır. Yer kürəsində ən güclü külək əsməsi hadisəsi də 1996-cı il aprelin 10-da Avstraliyanın şimal-qərb sahillərindəki kiçik Barrou adasında "Oliviya qasırğası" zamanı qeydə alınıb. Həmin vaxt adada küləyin sürəti saniyədə 113 metrə (408 km/saat) çatıb. Küləyin intensivliyinə görə Azərbaycan da ön sıralardadır. Bütövlükdə Abşeron yarımadasında, ölkənin ayrı-ayrı bölgələrində küləkli günlərin sayı kifayət qədər çoxdur. Təsadüfi deyil ki, küləkdən daha səmərəli istifadə etmək üçün Nazirlər Kabineti tərəfindən bu ilin aprelində qərar qəbul olunub. Qərara əsasən, bundan sonra Bakı şəhəri Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində dövlət mülkiyyətində 3,375 hektar, Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 19,875 hektar və Abşeron rayonu Pirəkəşkül-Qobustan bələdiyyəsinin mülkiyyətində 11,25 hektar olmaqla, ümumilikdə kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid 34,5 hektar torpaq sahəsi qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. 2040-cı ilə kimi Bakının Ələt, Sabunçu və Mərdəkan qəsəbələrində ümumi ərazisi 2650 hektar, qoyuluş gücü 1200 MVt olan bir külək və üç günəş-elektrik stansiyasının inşası nəzərdə tutulub.

Göründüyü kimi, təbiət hadisəsi olan külək qiymətli sərvətdir. Bu sərvətdən səmərəli istifadə etmək, səmtini dəyişmək insan oğlunun zəkasından asılıdır. Tədqiqatlar göstərir ki, küləyin sürəti saniyədə 3-4 metr olduğu halda elektrik enerjisinin əldə edilməsi mümkündür. Bakıda küləyin orta sürəti saniyədə 11 metrdir. Bundan başqa, işğaldan azad olunan Laçın və Kəlbəcər rayonlarında da küləkdən elektrik enerjisi alınması potensialı böyükdür. Kəlbəcərin dağlıq ərazilərində küləyin orta illik sürəti saniyədə 7-8 metr təşkil edir. Bütün bunlar Azərbaycanda külək enerjisindən istifadə imkanlarının geniş olduğunu göstərir. Danılmaz faktdır ki, Azərbaycanda külək və ənənəvi olmayan digər mənbələrdən elektrik enerjisi alınması istiqamətində durmadan iş aparılır, inamlı addımlar atılır. Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektoru üzrə 157 QVt həcmində külək enerjisi potensialı var ki, bu da xarici sərmayədarların diqqətindən yayınmayıb. Onlar zaman-zaman Azərbaycanda bərpaolunan enerji stansiyalarının tikintisinə sərmayə qoymaq istəklərini dilə gətiriblər.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə əməli fəaliyyətə keçərək, 2022-ci ilin yanvarında "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlini qoyub. 2025-ci ildə istismara veriləcək stansiyada ildə 1 milyard kVt/saat elektrik enerjisinin istehsal edilməsi planlaşdırılıb ki, bu da 220 milyon kubmetr təbii qaza qənaətə və 400 min tondan artıq $CO_2$ emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan yaradacaq. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaq. Stansiyanın təməlqoyma mərasimində çıxış edən Prezident İlham Əliyev deyib: "Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazi olan Cəbrayıl rayonunda hazırda böyük günəş-elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər böyük layihələrə start versinlər".

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda külək enerjisi ilə bağlı atılan addımlar uğurla nəticələnir. Bu gün alternativ və bərpaolunan enerji mənbələri hesabına elektrik enerjisinin istehsalında Azərbaycan üçün əsas istiqamətlər külək və günəş-elektrik stansiyalarının tikilməsidir. Təkcə quruda deyil, Xəzər dənizində də külək axınlarından istifadə etməklə enerji istehsalı mümkündür. Məlumat üçün bildirək ki, hazırda dünyada 162 dənizdə külək-elektrik stansiyası fəaliyyət göstərir. Sadəcə 2020-ci ildə 26 dənizdə külək layihəsinin tikintisinə başlanılıb. Dünya üzrə dənizdə külək enerjisi gücünə malik olan ölkələrin ilk beşliyi sırasına Birləşmiş Krallıq (10 QVt), Çin (8 QVt), Almaniya (7 QVt), Niderland (2.5 QVt) və Belçika (2 QVt) daxildir. Azərbaycan sadalanan bu ölkələrdən heç də geri qalmayacaq. Ötən il energetika naziri Pərviz Şahbazov müsahibələrinin birində bildirib ki, Xəzər dənizinin zəngin külək enerjisi potensialının 7,2 QVt-nı 2036-cı ilədək reallaşdırmaq niyyətindəyik.

Bu günlər bərpaolunan enerji sahəsindən xəbərlər yayan "Recharge" jurnalında "Əsrin yaşıl müqaviləsi Azərbaycanın dəniz külək enerjisi ilə bağlı arzusunu reallığa çevirə bilər" sərlövhəli məqalə dərc olunub. Məqalədə energetika nazirinin müavini və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) baş icraçı direktoru Elnur Soltanovun fikirləri yer alıb. O bildirib ki, dəniz külək-elektrik stansiyalarının tikilməsi Azərbaycan hökumətinin Avropa istehsalçıları ilə birgə "elektrik enerji hasilatının pay bölgüsü müqaviləsi"nə oxşar layihəyə açıq olmasını göstərir: "Energetika sahəsində strateji tərəfdaşlıqlar bizim üçün həmişə çox əhəmiyyət kəsb edəcək. Əgər Xəzərdə dəniz külək enerji layihəsini inkişaf etdirmək istəyiriksə, onda bizim mütləq yerli istehsala ehtiyacımız var, bütün komponentlər Avropa ölkələrindən gələ bilməz". Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Kamran Hüseynov Elnur Soltanovun fikirlərini dəstəkləyib: "Burada Avropaya ixrac vacib rol oynayacaq və Azərbaycan gələcəkdə dəniz külək enerjisi stansiyalarından alınacaq əlavə enerjidən hidrogen və elektrik yanacaq istehsal edə bilər".

SOCAR-ın nümayəndəsi Teymur Quliyev isə Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində ortaya çıxan bir sıra texniki məsələlərdən söz açıb: "Masdar" keçən il Azərbaycan hökuməti ilə 10 qiqavat gücündə bərpaolunan enerji stansiyası, o cümlədən 2 qiqavat gücündə dəniz külək enerjisi stansiyası layihəsinə dair müqavilə imzalayıb. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti, həmçinin Bakı ilə dörd layihəli sazişin bir hissəsi olaraq 1,5 QVt-lıq dəniz külək enerji stansiyası layihəsini həyata keçirir".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## *Astana toplantısı:* Azərbaycanın etibarlı tərəfdaş olduğu bir daha vurğulandı

**Astanada Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısında qonaq qismində iştirak edərkən Prezident İlham Əliyev bir sıra dövlət başçıları ilə görüşmüşdür. Bu görüşlərin özü də Prezident İlham Əliyevin Azərbaycanın şəksiz Lideri olduğunu, ölkəmizin nüfuzunu və etibarlı tərəfdaş kimi qəbul edildiyini, həyata keçirdiyi genişmiqyaslı işlərin dəstəkləndiyini bir daha göstərmişdir.**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev görüş zamanı demişdir: "Biz Qazaxıstanda Sizin ölkənizdə baş verən bütün dəyişiklikləri böyük maraqla izləyirik, bu dəyişikliklərə ürəkdən sevinirik. Əlbəttə, sözsüz ki, burada Sizin böyük şəxsi rolunuz var və onu yüksək qiymətləndiririk".

Qeyd edək ki, Azərbaycanla Qazaxıstan arasında müzakirə edilən və razılaşdırılan bütün istiqamətlər üzrə müsbət dinamika əldə olunur. Nəqliyyat infrastrukturu ilə bağlı məsələlər fəal şəkildə həyata keçirilir. Mahiyyət etibarilə Trans-Xəzər nəqliyyat marşrutu üzrə vahid komanda şəklində fəaliyyət göstərilir.

İşğaldan azad olunmuş Füzuli rayonunda fəaliyyət göstərən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini isə dövlətimizin başçısı Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzi adlandırmışdır.

Astanada iyulun 3-də dövlətimizin başçısı, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş də olub. Məlumdur ki, hazırda ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin artan dinamikası müsbət hal kimi qeyd edilir. Potensial isə daha böyükdür Ona görə də sözügedən görüşdə siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələr, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

"Qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, mənə elə gəlir ki, hətta hər gün, hər ay görüşsək, danışmaq üçün mövzularımız var. Diqqətinizi ona cəlb etmək istəyirəm ki, əsas məsələ - məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Dövriyyə dörd milyarddan çoxdur, məncə, 4,3-4,5 milyarddır və bu, Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var. Ümumiyyətlə, hər şey müsbət inkişaf edir. İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum "Şimal-Cənub" magistralıdır". Bunları isə dövlətimizin başçısı ilə görüşdə Rusiya Prezidenti Vladimir Putin demişdir.

Prezident İlham Əliyev keçən dəfə Moskvada "Şimal-Cənub" layihəsinin müzakirə edildiyini xatırladaraq bildirmişdir ki, o vaxtdan bəri müsbət irəliləyişlər baş verib. Biz Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik. Çünki fiziki cəhətdən mövcud olsa da, o, tərəfdaşlarımızın və qonşularımızın bu layihədən maksimum istifadə ilə bağlı niyyətlərinə uyğun gəlmir.

Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi getdikcə artır. Həm keçən , həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır. Beləliklə, bir neçə il əvvəlki danışıqlar uğurla həyata keçirilir.

Əmtəə dövriyyəsinin artması Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşündə də əsas mövzulardan olmuşdur. Si Cinpin bundan məmnun olduğunu bildirərək vurğulamışdır ki, əmtəə dövriyyəsi 3 milyard dollara çatıb və artım üçün potensial da var.

Xatırladaq ki, Azərbaycan artıq Çinin 6 şəhərində ticarət evi açıb, bununla da həmin ölkənin bazarında öz məhsullarını təşviq etməyə çalışır. Azərbaycan "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən və buna qoşulan ilk dövlətlərdən biridir. Odur ki, ölkəmizin nəqliyyat-logistika imkanları, bu sahəyə investisiyalar qoyduğu da qeyd edilmişdir. Bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük imkanlarının 5 milyon tona, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması vurğulanmışdır.

Orta dəhliz çərçivəsində Azərbaycan ilə Çin arasında əməkdaşlığa toxunularaq, bu dəhlizin rəqəmsallaşdırılmasının onun Mərkəzi Asiya ölkələrindən Qərb istiqamətinə, eyni zamanda Qərb istiqamətindən də Çinə və Mərkəzi Asiyaya yüklərin həcminin artmasına müsbət təsir göstərməsi, eləcə də bir sıra digər sahələrlə bağlı fikir mübadiləsi aparılması ölkələrimiz arasında iqtisadi əlaqələrin daha sürətlə inkişaf edəcəyindən xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ölkə üzrə taxıl sahələrinin 62,8 faizində biçin başa çatıb

### Sahələrdən 2 milyon tondan artıq məhsul yığılıb

**Kənd Təsərrüfatı Nazirliyində taxıl biçininin təşkili ilə bağlı yaradılmış operativ qərargahın məlumatına görə, iyunun 4-dək ölkə üzrə taxıl sahələrinin 62,8 faizində biçin başa çatıb.**

Mexanizatorlar tərəfindən 635 646 hektar sahədə biçin aparılıb ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 30844 hektar artıqdır.

Arpa sahələrinin 86,4 faizində, buğda sahələrinin isə 45,7 faizində biçin tam yekunlaşıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 29,7, buğda üzrə 31,9 sentnerdir. Zəmilərdən bugünədək 2 milyon 25 min tondan çox məhsul yığılıb, yığılan məhsulun 1 milyon 89,9 min tonu arpa, 935 min 158 tonu buğdadır.

Hazırda biçin prosesində 1576 kombayn iştirak edir. Bunlardan 633-ü "Aqroservis" ASC-nin, 943-ü isə fiziki və hüquqi şəxslərin özəl mülkiyyətində olan kombaynlardır.

Respublikada biçin prosesinin optimal müddətdə başa çatdırılması nəzərdə tutulur.

## Çindən Bakıya Orta dəhlizlə konteyner blok qatarların göndərilməsinə başlanılıb

**İyul ayından başlayaraq Çinin Sian limanından Bakıya Orta dəhlizlə gündə bir dəfə olmaqla müntəzəm konteyner blok qatarların göndərilməsinə başlanılıb.**

"Azərbaycan Dəmir Yolları" QSC-nin yaydığı məlumatda bildirilir ki, məişət malları, avtomobil və ehtiyat hissələri ilə yüklənmiş ilk qatarın Qazaxıstan və Xəzər dənizindən keçməklə təqribən 12 günə Bakıya çatacağı gözlənilir.

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində ötən dövr 570-dək benefisiar təlimlərə cəlb olunub



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində ötən dövrdə 570-dək benefisiar müxtəlif fəaliyyət istiqamətləri üzrə təlimlərə cəlb olunub.**

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə həssas qruplara aid şəxslərin yaradıcı potensialının inkişafına, həmçinin onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır.

2021-ci ilin oktyabr ayında açılışı olan mərkəzdə rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, toxuma, tikmə, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, audio-səsyazma, fotoqrafiya, kulinariya, səhnə ifaçılığı, kapoeyra, badminton və s. üzrə təlimlər təşkil edilir. Təlimləri uğurla başa vuranlara sertifikatlar təqdim edilib.

Hazırda burada 180 nəfər benefisiar təlimlərdə iştirak edərək bacarıqlarını təkmilləşdirir. Onlardan 136 nəfəri əlilliyi olan şəxslər, digərləri aztəminatlı ailələrdən olanlar, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi olanlar və ailə üzvləridir.

Mərkəzdə həssas qrupların yaradıcı potensialının inkişafına dəstək göstərilməsi ilə yanaşı, beynəlxalq metodikalar üzrə onlarla bağlı kompleks reabilitasiya, sosial pedaqoji inkişaf və psixoloji dəstək işləri də aparılır.

## AÇG-nin gəlirləri azalıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) cari ilin altı ayı ərzində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataq bloku üzrə gəlirləri 10,23 faiz azalıb.**

ARDNF-nin yaydığı məlumata görə, AÇG yatağından 2024-cü ilin əvvəlindən iyulun 1-i tarixinə 3 005,3 milyon dollar gəlir əldə olunub.

Xatırladaq ki ötən ilin müvafiq dövründə AÇG yatağından 3 milyard 348 milyon dollar gəlir əldə edilmişdi.

## Dünya birjalarında neft ucuzlaşıb




**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,5 dollar ucuzlaşaraq 86,84 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,56 dollar azalaraq 83,32 dollar təşkil edib.

## Bakıda "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil ediləcək

**İyulun 6-7-də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paytaxtda "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Yarmarka 2 gün müddətində Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında saat 09:00-dan 19:00-dək fəaliyyət göstərəcək.**

Yarmarkada müxtəlif regionlardan əvvəlcədən qeydiyyatdan keçən fermerlər yerli kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar. Satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan alıcılar Səyyar Qida Laboratoriyasının xidmətlərindən faydalana biləcəklər.

Yarmarkada ümumilikdə 20-dək regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

## Müasir avtomobil yolu infrastrukturumuz səmərə verir

### Beynəlxalq yüklərin avtomobillə Azərbaycan üzərindən daşınmasının potensialı böyükdür

**Azərbaycanın beynəlxalq əhəmiyyətli Orta dəhliz və "Şimal-Cənub" marşrutunda açar ölkə olmasını artıq hamı qəbul edir. Ölkəmiz şərqdən qərbə, şimaldan cənuba yükdaşımalarda əsas tranzit region kimi maraqlı tərəflərin diqqət mərkəzindədir və bütün məsələlərdə Azərbaycanın mövqeyi diqqətə alınır.**



Azərbaycan, İran və Rusiya arasında avtomobil nəqliyyatı yükdaşımaları üzrə aparılan danışıqlarda da ölkəmizin rəyi əsas götürülüb. Danışıqlarda üç ölkənin avtomobil nəqliyyatı və gömrük xidməti üzrə rəsmi dövlət nümayəndələri ilə yanaşı, avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımaları assosiasiyalarının, həmçinin əlaqədar şirkətlərin rəhbərləri iştirak etmişlər. Nümayəndə heyətləri yerlərdəki real vəziyyətlə tanış olmaq üçün Azərbaycanın Astara və Xanoba, İranın Astara və Rusiyanın Taqirkənd sərhəd-keçid məntəqələrində olmuşlar. Onlar sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilmə prosesini izləmişlər. Səfər iştirakçılarına ölkəmizin bu sahədəki imkanları nümayiş olunmuşdur. Bildirilmişdir ki, Azərbaycan tərəfində yaradılan infrastruktur indiki şəraitdə istənilən səviyyədə avtomobil axınının ölkə ərazisindən keçməsinə imkan verir.

Rusiyanın Dərbənd şəhərində keçirilən görüşdə tərəflər nəzarət-buraxılış məntəqələrində yoxlamalar, nəqliyyat vasitələrinin gözləmə müddətinin azaldılması istiqamətində görüləcək tədbirlər, beynəlxalq avtomobil daşımaları bazarında Azərbaycan, İran və Rusiya daşıyıcılarının payının artırılması, həmçinin üç ölkəni maraqlandıran digər məsələlər müzakirə olunmuşdur. Tərəflər Azərbaycan, İran və Rusiya tranzit potensialından tam həcmdə istifadənin və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı məqsədi ilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd etmiş, dəhlizin potensial imkanları barədə fikir mübadiləsi aparmışlar.

Məlumdur ki, "Şimal-Cənub" nəqliyyat dəhlizinin potensialı böyükdür. Ancaq infrastrukturdan tam istifadə olunmadığı üçün bu nəqliyyat marşrutu ilə yükdaşıma səviyyəsi aşağıdır. Xüsusilə dəmir yolu infrastrukturunun yaradılması xeyli vaxt aparacaq. Lakin bu gün gömrük prosedurlarını sadələşdirməklə avtomobillə yüklərin daşınmasının həcmini xeyli artırmaq olar. Azərbaycan həmişə bu işdə maraqlı olduğunu real tədbirlərlə partnyorlarına nümayiş etdirib. Bu baxımdan sözügedən görüş də istisna olmamışdır.

Söz düşmüşkən qeyd edək ki, Qazaxıstan və Çin də yüklərin dəmir yolu ilə yanaşı, avtomobillə daşınmasına maraq göstərir. Bu iki ölkə artıq Kurik dəniz limanından yüklərin Orta dəhlizlə Avropaya tranzit avtomobil daşınmasının sınaq rejiminə başlayıb. Bununla da tarixdə ilk dəfə Kurik və Bakı dəniz limanları vasitəsi ilə Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan marşrutu üzrə yüklərin sınaq tranzit daşınmasına start verilib. İlk yük karvanı Çinin Urumçi şəhərindən yola salınıb.

Yüklərin dəmir yolu ilə yanaşı, avtomobillə daşınması da dəniz nəqliyyatı marşrutundan vaxt sarıdan sərfəlidir. Belə ki, Çindən Qərb ölkələrinə dəniz yolu ilə çatdırılma 52 günə başa gəldiyi halda, dəmir yolu ilə bu müddət 22 gündür. Orta dəhlizlə yüklərin avtomobillə aralıq yükləmə-boşaltma olmadan "qapıdan-qapıya" çatdırılması müddəti isə 12 günə qədər azaldıla bilər.

Statistika göstərir ki, yüklərin Orta dəhliz və "Şimal-Cənub" dəhlizindən avtomobillə daşınması da yükgöndərənlər və yükü qəbul edənlər üçün sərfəlidir. İndiki dünya ticarətində iki mühüm amilə diqqət yetirilir - yüklərin tez çatdırılması və maya dəyərinin aşağı olması. Hər iki dəhliz müasir ticarətin bu qızıl qaydasına cavab verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Günəş paneli quraşdırmaq neçəyə başa gəlir?

**Son zamanlar günəş panellərinə olan maraq artıb. Bəs, evimizdə günəş paneli quraşdırmaq neçə manata başa gəlir?**

Günəş panellərinin dünyada əsas istehsalçısı Çin sayılır. Ölkəmizdə də bu panellər istehsal edilir. Lakin qiyməti ucuz deyil, gücünə görə 400-600 manat arasında dəyişir. Bu məbləğin üstünə digər avadanlıqları və quraşdırma məsrəflərini də gəlsək, panel sayından aslı olaraq qiymətlər 8-12 min manat arası dəyişə bilər.

Günəş panelləri il ərzində ortalama 300 gün evlərin təxminən 50 faiz enerji tələbatını qarşılaya bilər. İstismar müddətləri isə təxminən 30 ildir.



İstifadə edilən materialın növündən asılı olaraq müxtəlif çalarlarda olur. Ən böyük günəş paneli 700 wattdır. Amma ən çox istifadə edilən 550 watlıq panellərdir.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 mart (Bazar ertəsi günü) tarixli 138-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 14 cəmadiyəlaxir sənə 1337.
17 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

1919 sənəsi mart ayının 17-sində düşənbə [bazar ertəsi] günü, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Qubernatorun əmri**

Martın 5-ində, gündüz saat 11 radələrində Telefonnı küçədə olan Mirlasın saat mağazasını qarət qəsdi ilə dörd nəfər müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] oraya soxulmuşlar. Məzkur [adı çəkilən] dairədə olan təhərri [axtarış] polisəsi müdiri Fərzəlibəyov, Bakı qalabəyisi [komendantı] müavini Zalsman və Fətəlibəyov, postda duran qaradovoylar Nağı Haşım oğlu, Vasili Valinkov, 7-ci uçastok pristavı Şpak, qaradovoy Suxomlinov ilə bədəfkarları təqib etmişlərdir. Bədəfkarlar onlara güllə ataraq atışmağa başlamışlar. Onlardan iki nəfəri yaralanıb, tövqif edildikdən [tutulduqdan] sonra xəstəxanaya göndərilmişlərdir.

Həmin əmrnamədə yuxarıda göstərilən polis məmurlarının fədakarlıqlarını qeyd edərək kəndilərinə təşəkkürümü izhar etməyi vəzifəmdənədd [hesab] edirəm. Məmurlardan təhərri polisəsi müdiri Fərzəlibəyov, qalabəyi müavini Zalsman, pristav Şpak, nadziratellər Torqov, Speqalski və Fətəlibəyova təşəkkürlərimi izhar ilə qaradovoylar Nağı Haşım oğlu, Suxomlinov, Vasili Valinkova "sağ olunuz" deyirəm.

Bakı qalabəyisi və təhərri polisəsi naçalnikinə təklif edirəm, həmin hadisədə böyük müvəffəqiyyət göstərmiş olan məmurlar barəsində mənə məlumat təqdim edilsin. Bunlara mükafat olaraq pul veriləcəkdir.

*Bakı qubernatoru:*
*Rəşid bəy Axundzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANININ GÜRCÜSTAN MƏCLİSİ-MÜƏSSİSANINI TƏBRİKİ

Gürcüstan Məclisi-Müəssisanının [Təsisçilər Məclisinin] güşadı [açılışı] münasibətilə Azərbaycan Məclisi-Məbusanı sədri tərəfindən Gürcüstan Məclisi-Müəssisanı sədrinə böylə bir teleqraf göndərilmişdir:

Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] iki illik səneyi-dövriyyəsi münasibətilə Azərbaycan Məclisi-Məbusanı martın 12-sində vaqe olan təntənəli iclasında dostumuz Gürcüstan Cümhuriyyətini, Məclisi-Müəssisan açılması kimi tarixi bir gün münasibətilə təbrik etməyi mənə həvalə etmişdir.

Müttəhid [bütöv] Gürcüstan kəndi amali-milliyyəsinin hüsulu arzusu ilə heç bir mümaniətdən [maneçilikdən] qorxmayaraq və heç bir fədakarlıqdan çəkinməyərək, istiqlaliyyət qazanan millətlərdən heç birisi[nin] indiyə qədər nail olmadığı bir müvəffəqiyyətə çatmışdır. Gürcü millətinin öz arzularına erişmək işində göstərdiyi fövqəladə əzmkarlıq, hürriyyəti-əqvam [millətlərin azadlığı] tarixinin gözəl bir səhifəsini tutacaqdır. Gürcüstanın tərzi-idarəsini qəti surətdə müəyyən edici Gürcüstan Məclisi-Müəssisanı səadəti-milliyyəsini [milli xoşbəxtliyini] ancaq milli və məhəlli [yerli] istiqlaliyyətdə görən Qafqaziyanın başqa millətlərinin də bilaşübhə [şübhəsiz] arzusunu izhar edəcəkdir. Səmimi məhəbbətlə ruhlanan və yekdigərinin [bir-birinin] hüququna ehtiram edən Qafqaziya müstəqil hökumətləri öz aralarında olan daxili məsələləri – hər nə qədər müşkül məsələlər olarsa da – bilaixtilaf [münaqişəsiz] həll edə bilərlər.

Azərbaycan Məclisi-Məbusanı müşkül və məsul dövləti işlər və məsələlər həlli üçün dəvət olunmuş Gürcüstan məbuslarını təbrik və Gürcüstana səadət diləməklə bərabər, Qafqaziya millətlərinin sevgili Qafqaziyanı namuskaranə bir surətdə hər cür qara qüvvə və təcavüzlərdən müdafiə və xilas edə biləcəklərinə əmin olur.

*Azərbaycan Məclisi-Məbusanı rəisi:*
*Həsən bəy Ağayev*

## QƏZETƏLƏRDƏN

**Türkiyədə**

İstanbuldan xəbər verirlər ki, Məclisi-Əyanda vaqe olan mühüm iclasda məmləkətin əhvali-ümumiyyəsi müzakirə edilmişdir. Hökumətin zəifliyi və fəaliyyətsizliyi tənqid edilmişdir. Sultanın təyin etdiyi qərar üzrə, Şurayi-Kəbir [Böyük Şura] təşkil edilməsi məsələsi qaldırılmışdır. Bu layihə, üsuli-məşrutəyə [Konstitusiya üsuluna] zidd olduğundan rədd edilmişdir. Sonra iclas Kabinə heyətində təbəddülat [dəyişiklik] məsələsini müzakirə edib qərar qoymuşdur ki, siyasi xadimlərdən və əyanlardan Baş vəzir [Baş nazir] yanına göndərib ittixaz edilən [görülən] tədbirlərdən xəbərdar olsun. Hərgah, [Əhməd] Tofiq paşanın bu barədə verəcəyi bəyanat kafi görülməsə, Məclisi-Əyan dübarə [təkrar] yığışıb nə qərar üzrə Sultana müraciət etməyi həll edəcəkdir.

**Təzə Kabinə haqqında**

İstanbuldan xəbər verirlər ki, "Hürriyyət və Etilaf" firqəsi sədri Nurəddin paşa, Mustafa Səbri əfəndi və Əli Kamal bəy, Sultan tərəfindən hüzura qəbul edilmişlər.

**Türkiyə sosial-demokratları**

Yenə İstanbuldan xəbər verirlər ki, Məclisi-Əyan sədri Əhməd Rza bəyin təşəbbüsatı ilə "Təcəddüd", "Hürriyyət-pərvəran" və "Sosial-Demokrat" firqələri nümayəndələri Məclisi-Əyana cəm olub məmləkətin daxili siyasətinə qarışmayaraq xarici siyasətində iştirak etməyi qərara almışlardır. Bu birinci iclasda nə növ hərəkət ediləcəyi məsələləri müzakirə edilmişdir.

**Türkiyə əhvalı**

Krım Hökumətinin İstanbulda olan siyasi nümayəndəsi Həsən Səbri Ayvazov fevral ayının axırlarında İstanbuldan Krıma qayıtdıqda İstanbul həyatından məlumat verib demişdir ki:

*"Sülh Konfransına getməkdə olan Azərbaycan heyəti hələ İstanbulda idi. Çünki başqa hökumət heyətləri də gəlib çıxmamışdılar. Bu heyətlərin əziməti [gedişi] vəsaili-nəqliyyə [nəqliyyat vasitəsi] olmadığına görə təxirə düşmüşdür. Azərbaycan heyəti üzvü Əhməd bəy Ağayev fevral ayı ibtidalarında [əvvəllərində] ispanka [ispan qripi] azarına mübtəla olmuş idi. Məmləkətin əhvali-daxiliyyəsinə gəldikdə, Gənc türklər iş başından çəkildikdən sonra millətin ruhani [mənəvi] qüvvələrini ətrafına cəm edə biləcək heç bir qüvvə qalmamışdır. Cəbhədə və hökumətdə olan təbəddülat [dəyişikliklər; çaxnaşmalar] isbat etdi ki, Türkiyədə məmləkəti diriltməyə müstəid [qabiliyyəti olan] bir qüvvə varsa, o da Gənc türklərdir."*

Ayvazovun rəyincə, millət arasında bu axır vaxt görünən hərəkat onu göstərir ki, Gənc türklər yenə də məmləkət daxilində əhvali-siyasiyyəni və hökuməti təzədən vücuda gətirəcəkdirlər. Gəldikcə müstəid qüvvələr Gənc türklər ətrafına toplaşmaqdadırlar. İstanbulun Müttəfiq dövlət əsgərləri tərəfindən istilasına və Fransa komandanlığının tərzi-hərəkətinə gəldikdə, türklər buna millətin təhqir edilməsi kimi baxırlar. O cümlədən, bir neçə ali məktəblər boşa[l]dılıb, binaları isə saldatlar üçün qışla [kazarma] edilmişdir. Bu əhval münasibətilə İstanbulda olan ingilislər bu və ya digər tərəflə yaxşı münasibat saxlamağa çalışırlar. Müttəfiq dövlət əsgərləri İstanbulu istila etdikdən bəridir ki, həyat iki dəfə bahalanmışdır. İstanbuldan Qara dəniz limanlarına gediş-gəliş xeyli müşküldür. Hər bir dəfə Şərq cəbhəsi komandanı general Bertlo Baş ərkanından [Baş qərargahından] xüsusi icazə almaq lazımdır. Bu tədbir, bir tək bolşeviklərin Türkiyəyə və ya qərbə tərəf gəlmələri əleyhinə deyil, Odessadan, Kerçdən və Ukraynadan ticarət üçün İstanbula gələn bir çox möhtəkirlər əleyhinə ittixaz edilmişdir.

Ayvazovun dediyinə görə, London ziyalılarının dekabr ayı axırlarında vaqe olan mitinqdə çıxardıqları qərar xeyli maraqlıdır. Bu qətnamədə deyilir ki, London zəhmətkeş ziyalıları hökumətə xəbər verirlər ki, ümumi tərki-silah üçün qəti tədbirlər görmək və ictimai məsələləri fəhlələr mənafeyinə həll etməkdən ötrü ingilislər əsgərləri, istila edilən yerlərdən geri gəlməlidirlər. London ziyalıları hökuməti inandırırlar ki, hökumət onları Rusiya demokrat bolşevikləri kimi mübarizə tərzi-hərəkətinə əl atmağa məcbur etməz.

**Şimali Qafqaziyada**

Vladiqafqaz ilə Rostov arasında müstəqim [birbaşa] dəmiryol münasibatı [əlaqəsi] başlanmışdır. Teleqraf münasibatı da düzəlmək üzrədir. Rusiyanın hər bir tərəfindən Şimali Qafqaziyaya göndərilən məktubat və müxabirat [məktublar və xəbərlər] hamısı Rostovda yığılıb qalmışdır.

**Bakı yolu**

Vladiqafqaz ilə Qroznı arasında dəmiryol hərəkatı başlanmışdır. Petrovska və Bakıya tərəf olan dəmir yolunu tezliklə düzəltmək mümkün olmayacaqdır. Veden nahiyəsində, Çeçəndə, Qudermes ilə Xasavyurt arasında dəmiryol xətti nəhayət dərəcədə fəna bir haldadır. Dəmiryol idarəsi bu yolu düzəltməkdən ötrü külli miqdarda fəhlələr təşkilatı yapmaqdadır. Vladiqafqazda alınan məlumata görə, dəmiryolunun təmiri üçün Petrovskda külli miqdarda hər cür material və nəqliyyat vəsaili [vasitələri] vardır.

**Könüllü ordu**

Don hövzəsi bolşeviklərdən təmizlənmişdir. Luqan[sk], Baxmut dairələrində olan müharibələrdə Könüllü orduların bir hissəsi iştirak eyləmişdir. Davalardan birisində Kornilov alayı iştirak eyləmişdir. Bu alay, müharibə ibtidasında 1800 nəfər ikən, şimdi 4500 nəfərdir. Deməli, köhnə saldatlar şimdi bu alaya yazılmışlardır.

**Soçi nahiyəsi**

"Yedinaya Rossiya" qəzetəsi yazır: Gürcüstan mənabeyindən [mənbələrindən] alınan xəbərlərdən görünürdü ki, ingilis komandanlığı Könüllü orduya Soçi nahiyəsindən çıxmaq əmrini vermişdir. Bu xəbər həqiqətə müvafiq deyildir. Böylə bir əmrnamə verilməmişdir və verilə də bilməzdi. Əsil həqiqətdə isə, ingilislər Könüllü orduya dostanə bir təklifdə bulunmuşlardı. Böyük Soçi nahiyəsi halhazırda Könüllü ordu tərəfindən işğal edilmişdir. Suxum okruquna daxil olan bir yerdə isə iki ingilis bölüyü vardır. Soçi nahiyəsində olan gürcü dəstəsi general Konev ilə və bütün silah, topu ilə bərabər Könüllülər tərəfindən əsir edilmişdir.

**Rusiyada**

- Bolşeviklərin məlumatına nəzərən, Odessada olan fransız komandanlığı ilə Denikin nümayəndələri arasında ixtilaf əmələ gəlmişdir. Buna da Denikin əmri ilə ümumi səfərbərlik elanı səbəb olmuşdur. General Bertlo demişdir ki, ümumi səfərbərliyə müsaidə verməyib, yalnız zabitlərin səfərbərliyinə müsaidə verəcəkdir.

Bolşeviklərin teleqrafında denilir: *"Hər səhər Odessa küçələrinə bolşeviklərin intibahnamələri [vərəqələri] yapışdırılır. Qaragüruhlar bu intibahnamələri məhv etmək üçün tədbirlər ittixaz edirlərsə də, nəticəsiz qalır. Odessa Rusiyanın müxtəlif yerlərindən axıb gələn banda dəstələri ilə doludur. Bu bandalar müntəzəm olaraq, milis arasında da adamları vardır. Bunlar sərvətlilərdən dava xərci alırlar."*

- Rostovdan xəbər verilir ki, Bolşevik Hökumətinə xidmət edən məşhur əsgəri mühəndis-general Veliçko əks-inqilab, yaxud Könüllü ordu hücumunda Moskvanı müdafiə üçün bir plan hazırlamışdır. Bu plan mövcibincə [plana əsasən] Moskva şəhəri 16 hərbi məntəqəyə ayrılır. Tinlərdə olan evlərə pulemyot və xırda toplar qoyulmuşdur. Kreml mərkəzi idarə və üssülhərəkədir [bazadır]. Trotski Veliçkonun bu layihəsini təqdir və təsvib edib [bəyənib] böyük bəxşiş vermişdir.

**Başqırdlar - Şura qoşunları ilə**

Orenburqdan xəbər verilir ki, Başqırd-Şura [Sovet] qoşunları beloqvardeyslərin [ağqvardiyaçıların] dəstələrinə qarşı müharibə edirlər. Bizim hissələrlə başqırd qoşunları arasında daimi əlaqə başlanmışdır. Əsirlərin sözünə görə, Dutov dəstələri başqırd qoşunlarının bolşeviklər tərəfinə keçdiklərini bilməyirlər.

## DAĞISTAN ƏHVALI

**Azərbaycana təşəkkür**

Denikinin təcavüzü münasibətilə Azərbaycan Məclisi-Məbusanının protestosuna cavab olaraq, Dağıstan Hökuməti Xariciyyə naziri Dağıstanın Azərbaycan nümayəndəsinə bu məzmunda bir teleqraf çəkmişdir:

*"Könüllü ordunun həqşikənanə [qanunsuz] bir surətdə Dağıstan torpağına hücum etməsinə qarşı Azərbaycan Parlamanının protesto etməsini və könüllülərlə mübarizədə Azərbaycanın Dağıstana müavinət [köməklik] edəcəyini bilib Dağıstan Parlamanı sizdən təvəqqe edir ki, Azərbaycan Parlamanına və Hökumətinə Dağıstan Parlamanının səmimi təşəkkürünü bəyan edəsiniz və dağıstanlılar Azərbaycan[lı] qardaşlarımızın müavinət edəcəklərinə güvəndiklərinə bir dəxi qənaət hasil etdilər. Biz dəxi Azərbaycan Parlamanına və Hökumətinə təşəkkür ediriz."*

**Gürcüstana təşəkkür**

Dağıstan Hökuməti Xariciyyə naziri Gürcüstanda olan Dağıstan nümayəndəsi Axundova bu məzmunda bir teleqraf göndərmişdir:

*"Dağıstan Parlamanı təvəqqe edir ki, Könüllü orduların Dağıstan torpağına təcavüz etməsi münasibətilə Müttəfiqlərə protesto və Gürcüstan Hökumətinin Dağıstana olan hüsn-təvəccöh və xeyirxahlığını bildirir [bildirən] Gegeçkorinin yaddaştına [memorandumuna] müqabil, Gürcüstan Hökumətinə Parlamanın səmimi təşəkkürünü yetirəsiniz. Dağıstan Parlamanı təvəqqe edir Gürcüstan Hökumətinə bildirəsiniz ki, Qafqaziya millətlərinin istiqlalı uğrunda dağıstanlıları həmişə ən sadiq xadim görür."*

**Dikeriyada müharibə**

Şimali Qafqaziyadan verilən xəbərlərə nəzərən, Könüllü ordunun Osetiyada və Dikeriyada müharibələri davam edir. Könüllü ordu dikeriyalılardan 30 milyon manat pul, min rəs [baş] yəhərli at və min ədəd yapıncı istəyir.

* Dağıstan sülh heyətinin üzvü Çermoyev Azərbaycanda olan Dağıstan nümayəndəsi [Əlixan] Kantemirova teleqraf göndərərək, Şimali Qafqaziyada Denikinin qanundankənar hərəkatı haqqında istizah etmişdir [məlumat istəmişdir]. Kantemirov hökumət namindən Çermoyevi vəkil edir ki, Müttəfiqlər və Müttəfiqlərin Ali komandanlığı hüzurlarında Könüllü ordu hərəkatı müqabilinə protesto versin.

**Əhvali-daxiliyyə [daxili vəziyyət]**

Şimali Qafqaziyadan alınan mövsuq [etibarlı] məlumata görə, inquşlar üç süvari alayı təşkil edilməsi təklifinə yeddi günün müddətində öz razılıqlarını bildirməlidirlər. Yəqindir ki, inquşlar bu təklifə razı olmaqdan imtina edəcəklərdir.

İnquşlar arasında Könüllü ordu əleyhinə böyük cərəyan vardır. Çeçenlər fevralın 18-ində və 28-ində Qroznıda Lyaxov ilə Dağıstanlılar İttifaqı nümayəndələrinin yanında vaqe olan ictimada [yığıncaqda] Könüllü ordu təşkilindən və general Lyaxov ilə müzakiratda bulunmaqdan qəti surətdə imtina etmişlərdir. Demək olar ki, Könüllü ordu Qroznıdan kənara hərəkət etməmişdir. Dağıstan və Çeçenistan ancaq Dağıstan Hökumətini qəbul edirlər. Bu qərar üzrə bu yaxınlarda Şimali Qafqaziyada asayiş bərpası və inquşların tərki-silah edilmələri ilə Dağıstan millətlərinin Denikin hökumətini qəbul etmələri haqqında verilən xəbərlər doğru deyildir. Teymurxanşuradan alınan məlumata görə, Çeçenistanda və Dağıstanda məhəlli [yerli] ruhanilər başda olmaq üzrə, dini hərəkat başlanmaqdadır.

**Dağıstan Parlamanında**

Dağıstanlılarla Könüllü ordu arasında olan ixtilaf münasibətilə Dağıstanlılar şurasında Dağıstan Baş vəkili [Baş naziri] Pşemaxo Kotsev xarici işlər barəsində zeyldəki ərzihalda bulunmuşdur [aşağıdakı məlumatı vermişdir]:

*"Möhtərəm şura üzvləri! Əlbəttə, siz mənim Bakı səfərimdən maraqlanırsınız. Əvvəla Könüllü ordunun vürudu [gəlişi] münasibətilə dəvəran edən şayiat [gəzən şayiələr] barəsində bir neçə söz söyləmək istərdim. Başlıca böylə şayiat var idi ki, güya ki, Könüllü ordu Qroznı ilə Vladiqafqazı işğal eyləmişdir. Mən özümə borc bilirəm məlum edim ki, bu xəbər həqiqətə müvafiq deyildir. Vladiqafqaz 11 fevralda saat 1-də alınmışdır. Bu şəhər Qırmızı ordu və partizanlar tərəfindən deyil, inquşlar tərəfindən alınmışdı. Şəhər işğalından bir həftə əvvəl bolşeviklər qayət əcələ ilə şəhərdən çıxırdılar. Qroznıda isə 200 kazak və Dağıstan qoşunları var idi.*

*Könüllü ordu komandanı general Qaydeman fevral ayının 2-sində inquş əhalisinə bu məzmunda bir ultimatum vermişdir:*

*1. İnquşistan tərki-silah edib silahını Könüllü orduya təslim etməlidir.*

*2. İnquşlardan olan həp [bütün] Qırmızı qoşun əfradı [əsgərləri] Könüllü ordu əlinə verilməlidir.*

*3. Könüllü ordu bilamümaniət [maneəsiz, müqavimətsiz] Qroznı şəhərinə buraxılmalıdır.*

*4. Tersk oblastında kazaklara verilmiş olan zərərlərin həpsi inquşlar tərəfindən tövdi edilməlidir [verilməlidir].*

*5. İnquş əhalisi 19 yaşından 40 yaşınadək Könüllü ordu cərgəsinə girmək üçün əsgər verməlidir.*

*6. Tersk oblastına kazakdan general-qubernator təyin edilməlidir.*

*Bu əmrnamə general tərəfindən imza edilib Tersk və Dağıstan mahalının Baş komandanı general Lyaxova göndərilmişdir.*

*Lyaxova təklif edilir ki, bu yerlərdə sakitliyi bərpa eyləsin, iqtisadi məişəti islah eyləsin. Məhəlli qüvvələrin azad surətdə tərəqqisinə çalışsın, Dağıstan əhalisini yenidən ruslara mail eyləsin.*

*Bu əmrdən görünür ki, general Lyaxov Dağıstanı həmi hərbi, həmi mülki idarəyə müvəzzəf edilmişdir.*

*Könüllü ordu başçısı Denikindən sonra ikinci məsul şəxs general Erdelidir. Mən Bakıda ikən Könüllü ordu barəsində onunla danışıqda bulundum. Görünür ki, Könüllü ordunun bizdən heç bir məlumatı yoxdur. Hakəza [eləcə də], Gürcüstandan bilkülliyə [tamamən] bixəbərdir. Gürcüstan barəsində xüsusi mənbələrdən qeyri-səhih xəbərlər almışlardır ki, bu xəbərlərlə könüllülərlə Gürcüstan arasında ədavət əmələ gəlmişdir.*

*Könüllülər, Dağıstan Hökumətinin olduğunu və anarxiyaya qarşı mübarizə etdiyini bilirlərsə də, fəqət bizim məqsədimiz onlara məlum deyildir. General Erdeliyə Dağıstanla Müttəfiqlər arasında bağlanan əhdnamənin Müttəfiqlər komandanlığı tərəfindən Sülh Konfransınadək istiqlaliyyətimizi qəbul etdikləri maddəsini göstərdikdə, general artıq bir heyrət və təəccübə düşmüşdür.*

*Bizim hökumətimiz bu nöqteyi-nəzərdədir:*

*Kimsə ilə ixtilaf çıxarmaq istəməyiriz və hər kəslə də dostanə münasibatda bulunmaq istəyiriz. Fəqət Rusiya içərisində bolşeviklərlə mübarizə etmək işlərinə də qatışmaq fikrində deyiliz. İnquş əhalisinə ultimatum təqdim edildikdə onu rədd edərək demişlər ki, Könüllü ordu bizim ölkəyə sülh ilə deyil, hərb ilə gəlirlər. Sonra inquşlar bəyan etmişlər ki, Vladiqafqazı Dağıstan Hökumətinin əmri ilə işğal etmişlərdir. Dağıstan Hökumətinin əmri olmayınca könüllüləri Qroznı yaxınlığına buraxmayacaqdırlar. Könüllülərlə inquşlar arasında xırda müsadimə [toqquşma] vaqe olmuşsa da, fəqət könüllülər müvəffəq olmamışlardır. Məsələn, könüllülər Vladiqafqaz şəhərini işğal edə bilməmişlərdi.*

*Kimsə tərəfindən təsdiq edilməyən Könüllü ordu general-qubernatorluğu ultimatum təqdim etmək haqqına malik deyildir. Biz bunu təsdiq edəmməriz. Mən general Erdeliyə bəyan eylədim ki, inquşların tərki-silah məsələsinə Nikolay, Vorontsov-Daşkov da müdaxilə etmişdi. Fəqət onlar belə məsələni həll edə bilməmişlərdi. Bolşeviklər başçılarının təslimi xüsusunda biz o qədər də mübahisə etmədik. Fəqət onlar Könüllü orduya deyil, bizə təslim edilməlidirlər.*

*Könüllülərin Qroznıya buraxılması məsələsinə gəldikdə, ən məqul [məntiqli] cavabı inquşlar vermişlərdir. Dağıstanlılar tərəfindən zərərlərin verilməsi barəsində mən demişdim ki, biz bu məsələyə bir qədər də geniş surətdə baxırız. Ola bilər ki, inquşlar qabardinlərə, osetinlərə də zərər vermişlərdir. Dəyilən zərərlər yalnız kazaklara verilməli, zərərləri iadə etmək üçün xüsusi komissiya təşkil edilməlidir.*

*İnquşların 19 yaşından 40 yaşınadək silah altına alınıb da daxili Rusiyaya, bolşeviklər qarşısına mübarizəyə göndərilməsi məsələsinə gəldikdə bəyan eylədim ki, bu məsələni nə biz və nə də onlar həll edə bilmərik. Bütün bolşevik rəislərini təslim etdikdən sonra onların arvadları qalacaqdır. Hərgah, bu təqsirsiz arvadları çıxarmış olsaq, bütün İnquşistan boş qalacaqdır. Biz zənn ediriz ki, buna razılıq vermək olmaz.*

*Kazaklardan general-qubernator təyini məsələsinə gəldikdə, dedim ki, hərgah, qubernator təyin və intixabı [seçkisi] icab edərsə, o zaman, qubernator kazakdan deyil, dağıstanlılardan təyin edilməlidir. Buna da səbəb odur ki, Tersk mahal[ın]da kazakdan çox dağıstanlılar məskundurlar [yaşayırlar]. İngiltərə komandanlığına və Erdeliyə bəyanat verilmişdir. General Tomson cavabında demişdir, Könüllü ordudan tələb edəcəkdir ki, Dağıstan torpağına qədəm basmasın. Bu əhval general Erdeliyə dəxi məlum edilmişdir.*

*Biz zənn ediriz ki, bizimlə öylə rəftar edirlər ki, əbədən [əsla] rəva deyildir. Kuban və Don cümhuriyyətlərini qəbul edən Könüllü ordu bizim istiqlaliyyətimizə təcavüz edə bilməz. Biz dedik, hazırıq Könüllü ordu arxasını saxlayaq. Bolşeviklərlə mübarizəyə də hazırıq. Amma bununla bərabər, o şeylərə razı olmarıq ki, Nikolay onu keçirməkdən aciz idi.*

*Yalnız Denikin tərəfindən istiqlaliyyətimizin qəbul edilməsinin əhəmiyyəti yoxdur. Rusiyada olan başqa cümhuriyyətlərin müavinət və rizası lazımdır. Biz istiqlalımızın Denikin tərəfindən təsdiq edilməsini arzu etməyiriz. Biz deyiriz ki, biz öz evimizin sahibiyiz. Dincliklə və sülhlə yaşamaq istəyiriz. Heç kimə mane olmaq fikrində deyiliz. Heç kim də bizə mane olmamalıdır. Müttəfiqlər komandanlığı bizim cümhuriyyətə müavinət edəcəyini vəd etdi və Denikinə əmr vermişdir ki, qoşunlarını Dağıstan torpağından çıxarsın. General Erdeli bəyan eyləmişdir ki, Könüllü ordu Dağıstan Hökuməti təşkilindən bixəbər idi və nəhayət vədə verdi ki, Dağıstanla Könüllü ordu arasında olan ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün ciddi tədbirlər ittixazına [tədbirlər görülməsinə] girişəcəkdir.*

*Bizim hökumətimiz [Zübeyr] Teymurxanovu Müttəfiqlər komandanlığı nəzdinə göndərir ki, bu barədə məşvərətdə bulunsun."*

Bu məlumatı verdikdən sonra Kotsev işbu cümlə ilə bəyanatını qurtarır:

*"Həzərat! Sizin müqəddəratınız öz əlinizdədir. Siz möhkəm dursanız, istiqlaliyyətinizi müdafiə edərsiniz. Bizim zəif hissələrimiz bizə yaşamağa müsaidə vermədi. Bu da qətl-qarətdir ki, bizim işimizin pişrəftinə [qabağa getməsinə] daima əngəl törədir. İştə, bunun üçündür bizi sakit etmək istəyirlər. İştə, bunun üçündür ki, vətənimizə general-qubernator təyin etmək istəyirlər. Bu da bizim zəif halımızdır. Hərgah müstəqil surətdə yaşamaq istəyirsinizsə, o zaman vətənimizdə bu işlərin imkanına yol verməməlisiniz. Biz istiqlalımızı müdafiə etməliyiz. Həzərat! Hər vaxtdan artıq şimdi bizə birlik lazımdır. Biz xüsusi və xırda məsələləri sonraya buraxmalıyız. Hərgah, şimdi də birləşməsək, Nikolay əsrindən daha pis hala düşəriz."*

## İRAN İŞLƏRİ

**Müharibə zamanında İranın zərəri**

Tehranda nəşr olunan "Rə'd" qəzetəsi yazır ki, rus və türk əsgərləri Soyuqbulaq və ətrafında olduqları zaman əhaliyə bu aşağıdakı miqdarda zərər olmuşdur:

Rus əsgərlərinin vurduqları zərər 35 milyon 1 min tümən. Rus əsgərləri getdikləri zaman törətdikləri qətliamlarda tələf olanlardan başqa, şəhərdə və ətrafında 31 min adam həlak olmuşdur. Bundan əlavə, rus əsgərləri getdikləri zaman əsir sifətilə İrandan Rusiyaya 5 min adam aparmışlardır. Bunlardan bir hissəsi həlak olub, bir qədəri qayıtmışdır. Yerdə qalanlarının Rusiyada nə hal keçirdikləri məlum deyildir.

Türk əsgərlərinin İrana vurduqları zərər 825 min tümən hesab olur. 11 adam qətl edilmişdir. Bundan əlavə, aclıqdan və soyuqdan 5 min adam tələf olmuşdur.

Gərmərud və Xalxal tərəfdə türk əsgərləri 600 min tümən, rus əsgərləri isə min tümən zərər vurmuşlardır. Bu rayondan ruslar fəhlə sifətilə 12 min adam aparmışlardır. Bunlardan 300 nəfəri salamat qayıdıb, qalanları həlak olmuşlardır.

**İsfahanda bankın qarəti**

İsfahan şəhəri ətrafında "əməliyyatda" bulunmaqda olan quldur dəstəsi tərəfindən bugünlərdə İsfahan bankı qarət edilib, min tümən pul və 20 tay bəzzaziyyə malı [parça] aparılmışdır.

**Hökumət və ermənilər**

Şimali İranın qərbi cəhətlərində müharibədən dolayı öz vətənlərini tərk edib böyük xəsarətə düçar edilmiş olan ermənilərin halını nəzərə alaraq İran Hökuməti onlara ianə təriqi [yolu] ilə müavinət etməyi təhti-qərara almışdır.

**Quldurlar**

İranın hər tərəfindən istər əhali, istərsə hökumət idarələri tərəfindən mərkəzi Hökumətə ərizələr verilib ətrafda hərəkatda bulunmaqda olan quldur dəstələrindən şikayət edilir. Quldurlar rəhmsiz bir surətdə əhalini qətl-qarət edirlər. Quldurların rəisləri məşhur Cəfərqulu xan və Rəcəbəlidir.

Neçə gün bundan əqdəm [qabaq] yerli qüvvələrlə quldurlar arasında toqquşma vaqe olmuş, quldurlar davam etməyərək geri çəkilmişlərdir.

Bugünlərdə onlardan bir neçə nəfəri Kaşan və Gəmrə şəhərləri ətrafında görünüb bəzi kəndlərə hücum etmişlərdir. Mərkəzi Hökumət tərəfindən quldurlarla mübarizə etməkdən ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Cəngəlilər**

Qəzvindən "Rə'd" qəzetəsinə yazırlar ki, bir neçə gün bundan əvvəl cəngəlilərin dəstələri şəhərin ətrafında olan kəndlərə gəlib, əhalidən taxıl və qeyri məkulat [ərzaq] şeyləri həcz [müsadirə] etmişlərdir. Şəhərə yaxın olan Tarəm və Müncil qəsəbələri əhalisi mərkəzi Hökumətə müraciətən mühafizə istəmişlərdir.

## NƏZARƏTLƏRDƏ

**Məsai Nəzarətində**

* "Demosfen" nam [adlı] vaporun 14 nəfər müsəlman xidmətçiləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişlər ki, səfərbərliyə düşdüklərindən dolayı xidmətdən çıxmalıdırlar. Binaənileyh [ona görə], xidmətçilər[ə] iş-bu sənənin iyul, avqust və sentyabr ayları və keçən sənənin noyabr ayının birinci nisfi [yarısı] üçün müştərək müqavilənamə [kollektiv müqavilə] üzrə məvacibləri verilməlidir. Xidmətçilər rica etmişlər ki, işbu məsələyə tezliklə baxılsın. Zira, sevgili vətənləri ordusuna tez daxil olmaq arzusundadırlar.

* Parlamana idxalı ehtimal edilən hökumət qulluqçularına məvaciblərinin 75% verilməsinə görə Maliyyə Nəzarəti Məsai Nəzarətinə məlum etmişdir ki, Nəzarət siyahı tərtib verib Kontrol vasitəsilə Maliyyə Nəzarətinin Xəzinə şöbəsinə verməlidir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 mart (Bazar ertəsi günü) tarixli 138-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] qaçqınlara müavinət [yardım] haqqında verdiyi müraciətnamə nəticəsi olaraq "Boğaz" vaporu xidmətçilərindən qaçqınlar nəfinə [xeyrinə] 180 rubla 50 qəpik ianə varid [daxil] olmuşdur. Nəzarət ianə verən zəvata [şəxslərə] təşəkkür izhar edir [bildirir].

## TİCARƏT HAQQINDA

Hər millətin dərəceyi-mədəniyyətini göstərən bir çox şeylər varsa, onların birisi də və bəlkə ən birincisi o millətin dünyada yapdığı ticarətidir. Bir millətin mədəniyyəti onun dünya bazarlarında yapdığı ticarətlə ölçülür. İngiltərə dövləti ilə sabiqən [keçmişdə] çar hökumətini tarixi düşmənlikdən etilaf ədinə [razılığa gəlməyə] məcbur edən yalnız Almaniya ticarətinin dünya bazarlarında tərəqqi etməsi olmuş və şahidi olduğumuz Cahan müharibəsi yenə Etilaf dövlətləri ilə İttifaq dövlətlərinin ticarət rəqabətindən nəşət etmiş [əmələ gəlmiş].

Müstəqil və sərbəst yaşamaq arzusunda olan bir millət, kəndi vətəninin təbii sərvətindən istifadə etmək iqtidarına malik olmalıdır. Yalnız dövlətlər tərəfindən qəbul və təsdiq olunmuş bir hüdud daxilində hökumət təşkil edərək millətin zimami-idarəsini [idarə yüyənini] ələ almaqla həmişəlik və tam mənası ilə müstəqil yaşamaq olmaz. Müstəqil yaşamaqdan ötrü məmləkət daxilində bir də müstəqil ticarət, müstəqil sənaət [sanaye] və ziraat [kənd təsərrüfatı] təsis etmək lazım və həm də əsrə müvafiq təsis etmək lazım.

Dünyanın türk irqi ilə məskun yerləri ən böyük təbii sərvətə malikdirlər. Baba yurdumuz olan Türküstan, kəndi vətənimiz olan Qafqaziya Azərbaycanı, həkəza [eləcə də] İran Azərbaycan qitəsi [hissəsi] ilə Osmanlının Anadolusu təbiətcə dünyanın ən zəngin yerlərindən ədd [hesab] oluna bilərlər. Lakin mütəəssifanə olaraq [təəssüf ki], vətənin təbii sərvətindən, vətənin doğma övladından artıq başqaları istifadə edirlər. Azərbaycanımızın parlaq istiqbalına [gələcəyinə] inanaraq Azərbaycan ricali-hökumətini [hökumət adamlarını] vətəndə olan təbii sərvətdən istifadə etməyə və həm milli sərmayələri bu işə cəlb etməyə dəvət ediriz. Hərçənd təbii sərvətdən istifadə etməkdən ötrü sərmayədən başqa, daha ayrı şeylər həm lazımdır. Lakin işə şüru olunarsa [başlanarsa] və hökumət başında duranlarımız millətin mövcud qüvvəsindən istifadə istedadına malik olurlarsa, inanırız eyi nəticələr əldə edilmiş olar.

Qəzetə sütunlarında mövzubəhs məsələdən danışmağı başqa vaxta buraxaraq, bura yalnız ticarətdən ötrü, daha doğrusu ticarətin daxili intizamından ötrü lazım olan bir məsələdən müxtəsər də olsa bəhs edəlim. Başqaları az bir sərmayə ilə böyük kantorlar və neçə şəhərlərdə kəndi kantorlarının şöbələrini açaraq ticarət edirlər. Bizim ticarlər isə böyük sərmayə ilə xırda bir kantoru idarə edəmməyirlər. Bunun səbəbi nədir acəba? Türk irqinin, Anadolu türkləri müstəsna olunaraq, təbiətcə ticarətə artıq həvəsli və həm müstəid [qabiliyyətli] olduqlarını hər bir sahibi-vicdan inkar edə bilməz. Zənni-acizanəmcə tacirlikdə İran Azərbaycanının türkləri ən birinci mövqedə bulunsa bilərlərsə də, Qafqaziya türkləri həm ticarətə xeyli həvəsli və müstəiddirlər.

Ümumiyyətcə türk irqinin tacir bir millət olduğunu inkar etmək olmaz. Buna birinci dəlil Təbriz tərəflərini göstərmək olar ki, müntəzəm və Yevropa üsulunda kantorlar açmağa yalnız mədəniyyətcə müstəid olmadıqları halda, milyonlarla dad-stad [alış-veriş] edərək kurur-kurur [çox-çox, artıqlaması ilə] para qazanırlar və hər kəs kəndi təcrübəsi ilə ixtira etmiş bir buxqalteriya ilə dəftərdarlıq edirlər. Əlbəttə atalar demişkən, "köhnə tuluq təzə sirkəni saxlaya bilməz" və həbelə köhnə üsul ilə şimdi ticarət yapmaq artıq müşkül olacağı hamıca aşkardır.

Cahan müharibəsi bitər-bitməz böyük Yevropa və Amerika firmaları bütün Şərqdə və baxüsus [xüsusilə] böyük sərvətə malik olan Azərbaycanımızda şöbələr açmağa şüru edəcəklər [başlayacaqlar]. İndiyədək xammalımızı alaraq əvəzində kəndi fabrikalarının mallarını bizim vətəndə satdıqda vasitə yenə biz kəndimiz olduq. Şimdi isə karxana mallarını satmaqdan ötrü həm xarici sərmayənin vətənimiz daxilində işə şüru etməsi pək mühtəməldir. Binaənileyh, hazır olmaq lazımdır. Bu hazırlaşmağı millət kəndisi etməli. Hökumət var, Parlaman var deyə qənaət gətirmək və hər bir işi hökumətin öhdəsinə buraxmaq, üzərimizə qəbul olunmayan günahlardandır. Millət kəndisi, kəndi varlığını hər daqiqə və hər yerdə nümayiş etdirməlidir.

Qomşumuz ermənilərin neçə ildən bəri ededi ticarət məktəbləri və bir çox buxqalteriya kursları olduğundan, onlar bizdən çox qabaqdadırlar. Ticarətimizi vüsətləndirmək və Yevropa üsuluna salmaqdan ötrü biz də həkəza ticarət məktəbləri və buxqalteriya kursları açaraq gənc tacir sinifi və buxqalterlər vücuda gətirməliyiz.

Edadi və yaxud ali ticarət məktəbləri açmaqda cavan hökumətimiz əlbəttə camaata yardım etməlidir və bəlkə kəndi təşəbbüsü ilə Bakı və Gəncə kimi mərkəzlərimizdə birər ticarət məktəbləri açmalıdır. Bu ticarət məktəblərində məlum olduğu üzrə 8 sənə təhsil lazımdır. Binaə-nileyh, bundan yalnız ətfali-vətən [vətən uşaqları] istifadə edə bilər və yalnız atiyəmizi [gələcəyimizi] islah etmək üçün bu məktəblər neçə il sonra Yevropa üsulu ilə ticarət yapmağa müstəid [qabiliyyətli] istedadlı tacirlər hazırlayacaqdır. Bununla, əlbəttə ehtiyac rəf olmaz [aradan qaldırılmaz]. Çünki haliya [hal-hazırda] həm başqaları ilə ticarət mübarizəsi məcburiyyətində bulunuruz, hazırda tacirlərimizin əksəri türk, fars dillərində savadlıdırlar və həm qədim tacir olmaları həsəbilə [səbəbi ilə] ticarətə məhdud da olsa bələddirlər. Yalnız ticarətxanalarının hesabını Nuh əyyamından qalma bir üsul ilə, yaxud kəndi təcrübələri sayəsində ixtira etdikləri üsul ilə apardıqlarından, ticarətlərinə vüsət verə bilməyirlər. Binaəni-leyh, bu qısım tacirlərə həm kömək etmək lazımdır. Bunlardan ötrü buxqalteriya kursları açmaq və az bir zamanda ümumi üsul ilə ticarət aparmağı öyrətmək asan bir işdir. Lakin əvvəl tacirlərimizdə bu məsələyə bir həvəs olmaq lazım və ikinci buxqalteriya əməlində mütəxəssislərimiz bir-biri ilə görüşüb bir cəmiyyət təşkil edərək məzkur [deyilən] nöqtəyə diqqət etməlidirlər ki, bu barədə gələcək məqaləmizdə kəndi rəyimi mövzu-bəhs məsələdən maraqlanan əfəndilərə bildirməyi dərόhdə oluram [öhdəmə götürürəm].

Burada isə xatimeyi-kəlam [sözümün axırı] olaraq buxqalter elmində mütəxəssislərimiz yoxdur denilir, məlum etmək istəyirəm ki, həqiqət buxqalterlərimiz çox azdılar, lakin yox deməklə olmaz və var qüvvəmizi səfərbərlik halına gətirsək buxqalteriya kurslarında ana dilində tədrisə qadir buxqalterlərimiz az da olsa tapılar.

*Tağı Nağdəlizadə*

## AXISKA QIRĞINI

Axıska hadisələrinə dair qəzetələrdə yazılan və oralardan gələnlərin ağızlarından duyduğum doğru xəbərlərin xülasəsinə görə, əski və yeni Axıska vəqaləri [hadisələri] aşağıda yazmağa lüzum gəlmişdir:

Osmanlılar Axıska və Axalkələk qəzalarından çəkiləndən sonra, buraların gürcülərə təslim edilib-edilməməsini müzakirə üçün Ömər Faiq əfəndinin başçılığı ilə dərhal Milli Komitə yığılıb uzun mübahisələrdən sonra təslimə qərar vermiş və bu qərar mövcibincə [bu qərara əsasən] gürcü əsgəri keçən il dekabrın 5-ində qorxusuzca şəhərə daxil olmuş, müsəlman camaatı təzə hökuməti razılıqla qarşılamış və ondan ucuzluq, rahatlıq, əminlik və hər dürlü ictimai və iqtisadi yardım gözləyərək öz işləri ilə məşğul olmağa başlamışlar. Aradan dörd-beş gün keçmiş, hökumət qəzanın başbilənlərini həbs edib Tiflisə, qalaya göndərmiş, uçastok komissarları ilə strajniklər, əsgərlər hər yerdə camaata əziyyət verməyə, mallarını pulsuz zəbt etməyə, birər bəhanələrlə döyüb-söyməyə, alçaqlamağa, əski öc-intiqamları almağa, talan və qarətə olanca gücləri ilə başlayıb, hər sinif xalqı incitmiş və narazı buraxmışlar.

İştə, bu sırada sərhəddə duran gürcü əsgəri Qarsa tabe Posxov müdiriyyətindən Axıska qəzasına gəlib keçən posxovluları da incitməyə və hətta bir gün toy ilə Posxova götürülən müsəlman gəlininə mane olmağa və toyda olan silahlı müsəlmanları tutub həbs etməyə cürət etmiş və get-gedə böylə arsızlıqlardan, müsəlmanların sakit durmalarından üz bularaq yanvarın ortalarında, günün birində Posxova hücumla oranı zəbt və Axıskaya qoşmaq xəyalına düşmüşlərdir. Posxovlular isə buna razı olmayaraq əvvəlcə müdafiə və sonra hücuma keçərək sərhəddə müsəlmanları həbs edən əsgərləri əsir tutub götürmüşlər. Gürcü əsgərləri idarəsi bunları qurtarmaq və müsəlmanları cəzalandırmaq üçün Posxova doğru bir alay sövq etmişsə də, 200-300 posxovlular bunları meşənin kənarında xəbərsizcə sarıb tamamilə pərişan ilə Axıskaya sıxışdırmışdır. Baş komandan işin ciddiyyət və təhlükəsini mülahizə edərək posxovlularla bərabər onlara qoşulan axıskalıların gözlərini tamamilə qorxutmaq üçün iki-üç min qüvvətlə irəliləyib üç-dörd köyü topla tamamilə yandırıb dağıtmış və bir qədər də irəliləmiş, lakin haqlı bir intiqamla döşləri qabarmış o 200-300 türk qəhrəmanları qarşılarındakı iki-üç minlik qüvvətin qiyməti-əsgəriyyəsini [hərbi dəyərini] heçə sayaraq hər tərəfdən partizan üsulu ilə hücum etmiş və özlərindən yüz qat artıq olan düşmənin yağdırdığı top və pulemyot atəşlərinə baxmayaraq, onu az vaxtda pərişan ilə qaçmağa məcbur etmişdir və o böyük qüvvət təsəvvürə gəlməyən bir hal ilə, generalları əsgərlərlə, zabitləri köylülərlə qarışaraq aciz qarılar kimi yüz cür qorxularla ancaq başlarını qurtara bilmişlər. Gərək əsgəri qüvvət və gərəksə mülki idarələr kiçik bir qüvvət qarşısında özlərini itirib qaçandan və Axıska uyezdindən tamamilə təmizlənəndən sonra, uyezd idarəsinə bir para mənfəətpərəst, alçaq, ikiüzlü bəylər, nüfuzlular soxulub camaat arasına nifaq saçmağa və "mənlik" davası ilə bir-birləri ilə boğuşmağa başlamışlar. Bu surətlə məmləkətdə bir-birinin ziddi bir neçə qüvvət meydana çıxarmışlar ki, bunların bir qismi qeyrətli, həmiyyətli olmaqla bərabər, təcrübəsiz, idarəsiz bəylərdən, digər qismi isə fəsadçı, alçaq və ancaq mənfəəti-şəxsiyyəsini düşünən bəylərdən ibarət imiş.

İştə bu bəylərin bir-birləri ilə boğuşmaları səbəbilə məmləkətin idarə və müdafiəsi zəifləşmiş və camaatın əvvəlki eşq və atəşi sönməyə, ruh və imanı pozulmağa və nəhayət, mühafizeyi-haqq və vətən vəzifəsi haqqı ilə görülməyərək təhlükələrə meydan açmağa başlamışdır. Böylə bir vaxtda camaat arasında onun etimad və inanını [inamını] qazanmış, onun mənfəəti üçün çalışdığını feilən isbat etmiş aqil və təcrübəli adamların bulunmaması isə məmləkət müqəddəratını daha qaranlıq və müşkülata buraxmış və qızıl səması üzərində toplanan qara buludların dəhşətini hiss etdirəmməmişdir.

Axıskalıların, daha doğrusu o həmiyyətli qəhrəmanların başlarında bulunan baş və beyinsizlərdən bəzilərinin bacarıqsızlığı, bəzilərinin də alçaqlıq və xəyanəti üzündən məmləkətdə vüqua [meydana] gələn keşməkeş vəziyyət və zə'fiyyətdən Borjomda toplanan düşmən günü-gününə xəbər alaraq qüvvətini artırmış və Baxşibəy Maçabeli alçağının göndərdiyi gizli xəbər üzərinə düşmən on minə yaxın qüvvəti fevralın 5-ində Azqur köyünə qarşı açdığı dəhşətli top atəşləri altında hərəkət edərək şose yolunun hər iki tərəfindəki köyləri, köylüləri yıxaraq, öldürərək irəliləyə bilmiş.

Bu gün Borjomdan ingilislərlə Tiflisə və oradan Bakıya gələn bir axıskalı bu son hadisəni böylə nəql edirdi:

Müsəlmanlar gürcülərin bir daha qüvvət cəm edib hücum edəcəklərinə az inanırlardı. Buna görə, cəbhədə qayət az əsgər bulundururlardı. Bu əsgərlər də cəbhəyə yaxın köylülərdən ibarət idi. Sərvər bəylə Baxşibəyin arasındakı xüsusi düşmənlik isə müdafiəyə gedəcək köylüləri ikiyə böldü və bunları bir-birləri ilə vuruşduraraq müdafiəni bütün-bütün unutdurdu. İştə, bu sırada, yəni cəbhədə 300 köylü qaldığı bir gündə gürcülər güclü top və pulmeyotlarla müsəlləh [silahlanmış] 10 min qədər bir qüvvətlə irəlilədi. 300 müdafe [müdafiəçi] 10 min qüvvətlə üç-dörd saat vuruşdu. Axırda top güllərinin şiddət və kəsrəti [çoxluğu] ilə qismən tələf [oldu], qismən yaralandı. Gürcü əsgərləri müsəlman fədailərinin ancaq nə'şləri [cəsədləri] üzərindən yol tapıb irəli keçdi. Müsəlmanların müdafiə xətt və qüvvəti də bu birinci çarpışma ilə tamamən qurtardı. Çünki qalan camaat və köylər işin həqiqətindən bixəbər, evlərində rahat otururlardı. Top gülləleri köylərə düşüb, başlarında patladığı vaxt işin ciddiyyətini anladılar. Lakin, bu vaxt çocuqlarının əllərindən tutaraq və hər şeyi düşmənə buraxaraq qarlı meşələrə qaçmaqdan başqa çarələri yoxdu və böylə də eylədilər.

Gürcülər şosenin hər iki tərəfində bulunan köylərə güllə yağdıra-yağdıra bütün sağ qalan camaatını dağlara, meşələrə qaçıra-qaçıra irəlilədilər. Gürcü əs gərləri köylərə bir çox top atammamış, rast gəldiyi qoca, qadın, çocuq və sibyanı [bəbələri] güllələməmiş heç bir köyə girə bilmirlərdi. Köylərə girəndən sonra da yapdıqları vəhşilik və canavarlıqlar tərifin xaricindədir. Gürcü demokrat narodnaya qvardiyanın [Gürcüstan Demokratik Respublikası Xalq qvardiyasının] eylədiyi zülüm və vəhşəti müsəlman tarixi unutmasa gərək. Müsəlmanlar əsla güman etmədilər ki, dostədd [hesab] edilən gürcü dövlətinin nizami əsgəri və Qırmızı Xas alayı rahat və silahsız camaata qarşı bu tövr qırmızı xunrizlik [qantökənlik], bu dürlü işgəncə və zülümlər icad edələr.

Azqurdan Axıskaya qədər 21 verst uzaqlığındakı 25-30 köyün on minlərcə camaatı köylərini tamamilə tərk edib meşələrə, dağlara qaçmışlardır. Deyirlər oralarda qarın yüksəkliyi bir arşına yaxındır. Əgər bu qaçan camaat bir-iki günə qədər yurdlarına dönməsələr, – ki, bu qeyri-qabildir – hamısı aclıqdan, soyuqdan tələf olacaqlardır. Meşələrə qaçan köylülərin qaramal, heyvan ilə bütün ev əşyasını, yeyəcəklərini, toxumlarını ac əsgərlər canavarlar kimi tələf edirlər. Müsəlman köylərinin yaxınlığındakı, hətta Borjom ətrafındakı minlərcə ac gürcü köylüləri yüzlərcə arabalarla sahibsiz qalmış müsəlman köylərinə daraşıb gecə-gündüz var-yoxu çəkib götürürlər. Böylə ki, sağ qalıb kəndlərinə gələcək müsəlmanlar bir çox vaxt kəndlərində də bir zad bulammayıb aclıqdan, xəstəlikdən tələf olacaqları aşkardır.

Mən Borjomda ikən müsəlman köylərindən gətirilmiş bir çox heyvan sürülərini Mixaylovoya doğru götürürlərdi. Müsəlmanların əşya və ərzağını yüklənmiş gürcü arabalarından yollarda keçmək olmur.

Azqurun ətrafında, şose yolu kənarlarında dörd-beş gündən bəri buraxılmış müsəlman nə'şlərini [cəsədlərini] itlər öylə dağıtmışlar ki, kim olduqlarını tanımaq mümkün deyil. Köylərdə kimsə yox ki, bunları bir hal ilə basdırsın. Amma olsalar da, gizləndikləri yerlərdən çıxmaları qabilmi? Hər köydə yüzlərcə əzrail insan sifətində dolaşır. Meydana çıxmaq, görünmək mümkünmü? Yolda gəlirkən orada-burada bir çox köy itlərinin yığışdıqları uzaqdan nəzərimizə çarpırdı. Onları[n] heyvan leşlərinə sarıldıqlarını zənn edirdik. Yaxın gəlib görürdük dağıtdıqları, yedikləri öz köylüləri və bəlkə də sahibləridir.

Gürcü əsgərləri arasında bulunan, daha doğrusu pəncələrinə düşmüş bir çox müsəlman qızlarının hallarını görməmək üçün inanınız gözlərimi qapadım. Məgər dünyada bu qədər vəhşət, bu qə-dər zalımanə "intiqam" olarmış! Hələ deyirlər, Axıskadan Posxova doğru olan yüzlərcə köylərin halı bunlardan da fəna, bunlardan da betərdir.

Doğrusu, bu dərəcə qarət və vəhşətin səbəbini, müdafiə etməyən köylərin bu mərtəbə, yəni tamamilə soyulub məhv edildiyinin hikmətini yalnız cahil əsgərlərin vəhşiliyində zənn edirdim. Lakin Borjom vaqonunda bir gürcü zabitinin: *"Yolların kənarlarındakı köylər tamamilə məhv edilməlidir ki, bir daha bizim xətti-ricətimizi [dönüş yolumuzu] kəsə bilməsinlər. Türklüyə meyl edən müsəlmanlar tamamilə yox edilib yerlərinə xalis gürcülər yerləşdirilməlidir ki, gələcəkdə bir daha başımıza Axıska məsələsi çıxmasın."*

Anladım ki, gürcü demokrat hökumətinin müsəlmanlar haqqındakı planı nə imiş, – dedi.

Müxatabımın [həmsöhbətimin] sözü burada qurtuldu. Bu ciyərsuz [ciyər yandıran, acınacaqlı] hadisəyə dair alacağım qanlı xəbərləri yenə yazaram.

*Ə. H.*

**Əlavə:** Bütün türkcə, rusca qəzetə idarələrindən rica edirəm ki, bu məqaləni dərc eyləsinlər.

*Ə. H.*

## BAKI XƏBƏRLƏRİ

**İstinaf Məhkəməsinin (Palatasının) rəsmi-güşadı**

Dünən Bakı İstinaf [Apellyasiya] Məhkəməsinin (Palatasının) rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu. Sabiq Okrujnoy sud [Nahiyə məhkəməsi] binası xalçalar və göyərti [yaşıl budaqlar, çələnglər] ilə bərabər bəzənmiş, musiqi dəstəsi çalırdı. Rəsmi-güşadda Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski başda olmaq üzrə bütün Hökumət əzaları [üzvləri], məhkəmə sədri, üzvlər və xidmətçilər və Bakıdakı dava vəkilləri hazır olmuşlardır. Təfsilat sabahkı nömrədə...

**Səhiyyə işləri**

* Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri Bakı qubernatoruna məlum edir ki, Bakı sakinləri Cəfərqulu Həmzəli oğlu, Müseyib Ələkbər oğlu, Hacəli Məhəmməd oğlu, Balakişi Əbdürrəşid oğlu, Vladimir Şpak və Məhəmmədnağı Hüseyn oğlu gizli surətdə olaraq mal və qoyun kəsməkdə müttəhim edilmişlərdir. Buna binaən [buna görə], məzkur [adı çəkilən] şəxslərin təhti-mühakiməyə alınmasından ötrü lazımi binagüzarlıq edilməlidir [sərəncam verilməlidir].

* Səhhəti-Ümumiyyə naziri Bakı qubernatoruna məlum edir ki, dəfəatla [dəfələrlə] elan verilib və binagüzarlıq [xəbərdarlıq] edildiyinə baxmayaraq bəzi evlərdən küçəyə zibil tullanılması müşahidə olunmaqdadır. Şəhərdə xəstəlik davam etdiyini nəzərə alaraq hifzüssihhəyə müzirr [sağlamlığa zərərli] olan böylə hərəkətin önü alınmasını məzkur Nəzarət [adı çəkilən Nazirlik], qubernatordan rica edir.

* Gürcüstan Müsəlman Şurayi-Millisi [Milli Şurası] sədri Əlimirzə Nərimanov cənabları xidməti vəzaif [tapşırıqlar] üçün Bakıya varid olmuşdur [gəlmişdir].

**İtibdir**

Elxani İsrafil oğlu 7 yaşında, başında ağ papaq, əynində boz pencək iki aydır itibdir. Onun barəsində məlumatı olanlardan çox xahiş edirəm ki, gəlib mənə xəbər versinlər. Balaxanski küçə, nömrə 43. İsrafil Abbas oğlu.

## ƏRƏBLİNSKİNİN QƏTLİ ƏTRAFINDA

Tiflis Türk Dram Cəmiyyəti artistləri tərəfindən idarəmizə böylə bir teleqram gəlmişdir:

*"Tiflis Türk Dram Cəmiyyəti artistləri müsəlmanların ədəbiyyat və sənayeyi-nəfisəsi [incəsənəti] ulduzu olan, bütün islam aləmində şöhrət qazanmış artist Hüseyn Ərəblinskinin qətl edilməsini eşidərək mükəddər olmuşlardır. Ey böyük müəllimimiz! Allah sənə rəhmət etsin və səni hörmətli tutanlara əcri-cəmil əta eyləsin [gözəl əvəz, yaxşı mükafat versin]!*

*Cəmiyyət vəkili: Bağırov"*

* * *

Möhtərəm müdir əfəndi!

Bu məktubumun dərcini rica edirəm.

Keçən gün, martın 7-sində Bakı deposunda olan müsəlman əmələ və ustaları nümayəndələri mənim yanıma gəlib, canilər tərəfindən fəcianə bir surətdə qətl edilən hamının sevgilisi, məharətli artist Hüseyn Ərəblinskinin ailəsinə və yoldaşlarına qəzetəniz vasitəsilə izhariyə's və təəssüf etməyi [hüzün və kədərlərini bildirməyi] xahiş etdilər. Biz müsəlman fəhlələri Ərəblinski şəxsində bir hürriyyət və istiqlaliyyət mübarizi və bir səhnə müəllimimizdən məhrum olduq. Miqdarı az olan ziyalılarımız arasından qəddar əli ilə bu ziyalını aramızdan yox edən qatil ən şiddətli cəzaya düçar olmalıdır. Bunu biz təkidlə xahiş edirik.

*Mühəndis: A. B.*

* * *

Mərhum Hüseyn Ərəblinskinin hərəmi Asiya xanım Ərəblinski Bakı qubernatoruna bir ərizə verərək məlum etmişdir ki, Ərəblinskinin qətlinə birinci səbəb və müqəssir olan Salam Zeynalov nədənsə həbsdən azad edilmişdir. Məzkur [adı çəkilən] qatil, arvadı Asiyanı dəxi öldürməklə təhdid edir. Onun qohumlarından olan İsmayıl dəxi arvadı təhdid edir və hər gün onun arvadı evinə gələrək onu müqəssir etməməyi tələb edir. Bunu məlum edərək Asiya xanım qubernatordan rica edir ki, yuxarıda göstərilən şəxsləri tövqif edib [tutub] həbsə alsın. Çünkü o, köməksiz arvad olduğu üçün onların qorxusundan evdən kənara çıxa bilməyir. Hərgah, bu iş etinasız qalarsa, həman şəxslərin arvadı öldürəcəklərinə şübhə yoxdur.

## ƏRZAQ İŞLƏRİ

- Bakı Mahal Kəndçilər İttifaqı, Ərzaq Nəzarətinə müraciət edib İttifaqın məsuliyyəti altında kəndlilər arasında paylanmaqdan ötrü düyü buraxılmasına icazə verilməsini xahiş etmişdir.

- Bakı Mahal Kəndçilər İttifaqı, Ərzaq Nəzarətinə müraciət edib Nəzarət binasında Kəndçilər İttifaqının dəftərxanası üçün otaqlardan birinin vagüzar edilməsi [verilməsi] xahişində bulunmuşdur.

- Ərzaq Nəzarəti Balaxanı-Sabunçu polismeysterinə xəbər vermişdir ki, Ərzaq Nəzarəti tərəfindən "El dükanı" istehlak cəmiyyətinə 100 put lobu, 50 put kişmiş, 50 put təmizlənmiş və 50 put da təmizlənməmiş düyü buraxılmışdır ki, Sabunçu əhalisi arasında təqsim edilsin [paylansın]. Bu şeylər, bu qiymətlə buraxılmalıdır: lobunun putu 100 manata, təmizlənmiş düyü 180, təmizənməmiş düyü 160 manat, kişmiş 140 manat. Adam başına düyü, kişmiş və lobudan bir girvənkə veriləcəkdir. Ərzaq Nəzarəti polis-meysterdən xahiş edir ki, bu şeylərin əhali arasında düz və doğru paylanmasına diqqət edib, axırda Ərzaq Nəzarətinə xəbər versin.

## BAKI QUBERNİYASINDA

**Quldurlar ilə mübarizə**

Cavad qəzasının qaimməqamı [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, axır vaxtlarda İran quldurları sərhədi keçərək oraya yaxın olan ətraf kəndlərə hücumla dinc əhalini qətl-qarət etməyə başlamışlardır. Uyezd polis dairəsinin qaravul dəstələri təşkil edilmək üzrə olduğundan, quldurlara mane olub onların önünü almaqdan acizdirlər. Buna binaən [buna görə], Bakı qubernatoru Hərbiyyə vəzirinə [nazirinə] müraciətən quldurlarla mübarizə etməkdən ötrü qoşun dəstələri göndərilməsini rica etmişdir.

**"Vergi"**

Binəqədi, Xırdalan və Digah kəndlərinin camaatı öz vəkilləri vasitəsilə Bakı qubernatoruna müraciətən məlum etmişlər ki, neçə vaxt bundan əqdəm [qabaq] məzkur [adı çəkilən] kəndlər Balaxanı-Sabunçu qalabəyisinin [komendantının] binagüzarlığı [sərəncamı] ilə Biləcəri kəndinə mülhəq edilib [birləşdirilib] və dörd kəndə bir nəfər Biləcəri kəndi əhli Məhəmmədcəfər Əbdüssəməd oğlu yüzbaşı təyin edilmişdir. İndi həman yüzbaşı məzkur kəndlərdən dəftərxana xərci olaraq hər ay beş min manat pul tələb edir. Kənd camaatının isə həmin "vergi"ni əda etməyə [verməyə] qüvvəsi yoxdur. Keçmiş müharibələrdə hər cəhətdən zərərdidə olub artıq dərəcə ehtiyac içində olduqlarını göstərərək kəndlilər qubernatordan rica edirlər ki, onları yüzbaşının təyin etdiyi vergidən azad etsin və məzkur kəndlər Biləcəri kəndindən ayrılıb sabiqki qərar üzrə hər kənd öz yüzbaşısı tərəfindən idarə edilsin.

**Balaxanı kəndində**

Martın 11-ində Balaxanı kəndi camaatı tərəfindən ümumi iclas dəvət edilib, zeyldəki [aşağıdakı] məsələlər müzakirə və həll edilmişdir:

1) Əxzi-əsgər [Hərbi qulluğa çağırış] heyəti idarəsinə yeni dəvət edilən əsgərlər barəsində siyahı tərtib edib onların haqqında lazımi məlumat vermək üçün iki nəfərdən ibarət bir komissiya intixab edilir [seçilir] və həman komissiyaya kərbəlayi Balakərim Kərimov və Dilim Budaqov seçilirlər.

2) Vergiləri təqsim etmək [bölüşdürmək] üçün Əlisabit Bağırov və Hüseyn bəy Hacıbəy oğlu seçilirlər.

Sonra iclas camaat işlərində bəzi sui-istemalda [sui-istifadədə] bulunan şəxslərin və camaata mütəalliq [məxsus] olan məbləğ barəsində müzakirədə bulunub qərar verir ki, həmin işləri təhqiq edib və sui-istemalda bulunan şəxsləri təhti-mühakiməyə almaq üçün bir təftiş komissiyası və bir nəfər də xəzinədar [mühasib] intixab edilsin. Bir qədər müzakirədən sonra iclas müttəfiqülqövl olaraq [yekdilliklə] zeyldəki şəxsləri intixab edir: Tatos Dadaşov, Əlihüseyn Axundov, Qəni Əlimərdanov, Fətulla Hüseynov və Ağahüseyn Fərəcullayev təftiş komissiyasına və Xanmirzə Xanmirzəyev xəzinədarlığa seçilirlər.

Bundan sonra, iclas kəndə bir təbib dəvət edilməsi məsələsini müzakirə edərək qərardad edir ki, bu barədə Sovet Syezdə müraciətən rica olunsun. Çünkü Sovet Syezd Xərasan və Qırməkidə olan neft quyuları sahiblərindən put hesabı olaraq müəyyən məbləğ alır. Buna görə də Balaxanı kəndinə məxsus bir təbib dəvət etmək məzkur idarənin borcudur.

## GÜRCÜSTANDA

**Gürcüstan Məclisi-Müəssisanı**

Gürcüstan Məclisi-Müəssisanında firqə nümayəndələrinin miqdarı bu qərar üzrədir:

Sosial-demokratlar 109; Milli-demokratlar 8; Ədəmi-mərkəziyyətçi sosialistlər 8 və eserlər 5. Bitərəf, müstəqil, radikal-demokrat və daşnaksaqanların nümayəndələri yoxdur.

**Diş həkimi**

Varşavadan gəlmiş **S. A. Yejevski.** Staropoliseyski küçə nömrə 6, Baryatinskinin küncündə, telefon nömrə 54-55. Qəbul edir saat 9-dan 1-ədək, 4-dən 6-yadək. Dişləri ağrısız çəkir, doldurur, qızıl dişlər, ənglər və damaxlar qayırır.

*5751*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**S.M.Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669 22-07*

**Elan**

Salyan Ünas [Qızlar] Məktəbi-ibtidaisi üçün 2 türk müəlliməsi lazımdır. Xahiş edən xanımlar Maarif Nəzarətinə müraciət etməlidirlər.

*T-65*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qəzetələrdən***

"Məclisi-Əyan": Osmanlı dövlətində konstitusiyalı monarxiya rejimində Məclisi-Məbusanla birgə Məclisi-Ümumini əmələ gətirirdi. Məclisi-Əyan Məclisi-Ümuminin yuxarı palatası idi. 1876-cı ildə qurulmuşdu.

"Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkət.

Kornilov alayı: Rus ordusunun hərbi birləşməsi; 1917-1922-ci illərdə mövcud olmuşdur. Könüllü ordu yarandığı gündən etibarən Kornilov alayı onun tərkibində yer almışdır. General Lavr Kornilovun adıyla bağlıdır.

"Bu bandalar müntəzəm olaraq, milis arasında da adamları vardır.": Belə başa düşülməlidir: "Bu bandalar yaxşı təşkilatlanmışdır və milis arasında da adamları vardır."

***Dağıstan əhvalı***

"Dikeriya… dikeriyalılar…": Osetinlərin subetnik qrupu olan diqorlar və Şimali Osetiyanın qərbində diqorların yaşadığı ərazi olan Diqoriya nəzərdə tutulur.

"…inquşların tərki-silah məsələsinə Nikolay…": Rusiya imperatoru II Nikolay nəzərdə tutulur.

***İran işləri***

"Cəngəlilər": İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatı (Cəngəlilər hərəkatı) iştirakçıları.

***Ticarət haqqında***

"edadi": orta məktəbin ali təhsilə hazırlıq mərhələsi; lisey.

***Axıska qırğını***

"…həbs edib Tiflisə, qalaya göndərmiş…": Tiflisdə, XIX əsrin əvvəllərindən etibarən həbsxana kimi istifadə edilən tarixi Metex qalası nəzərdə tutulur.

"…bir gün toy ilə…": qəzetdə "bir" yerinə "bu" getmişdir.

"Sərvər bəy": Mesxet müsəlmanlarının liderlərindən biri olan Atabəyov Osman Sərvər bəy nəzərdə tutulur.

"Ə. H.": bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

***Bakı quberniyasında***

"Sovet Syezd": Bakı Neft Mədənçiləri Qurultayı Şurası nəzərdə tutulur.

***Gürcüstanda***

"sosial-demokratlar": Gürcüstan Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

"milli-demokratlar": Gürcüstan Milli-Demokrat Partiyası nəzərdə tutulur.

"ədəmi-mərkəziyyətçi sosialistlər": Gürcüstan Sosialist-Federalistlər Partiyası nəzərdə tutulur.

"eserlər": Gürcüstan Sosialist-İnqilabçılar Partiyası nəzərdə tutulur.





# Avro-2024



## Mert Günok Qordon Benkslə müqayisə edildi



**"İnana bilmirəm ki, bu gün evə dönürük. Biz düşünürdük ki, yolumuza davam edəcəyik". Bu sözləri Avstriya millisinin baş məşqçisi Ralk Ranqnik deyib.**

Türkiyəyə qarşı keçirilən 1/8 final matçından (1:2) sonra təşkil olunan mətbuat konfransında alman mütəxəssis bildirib: "Turnirdə oynadığımız dörd oyun, bugünkü matç da daxil olmaqla, çox maraqlı alındı. Hər şey bizim üçün rəvan getmədi, amma dörd çox əyləncəli və gərgin oyun izlədik. İndi biz buradan özümüz üçün ən yaxşıları Millətlər Liqasına, ondan sonra isə dünya çempionatının seçmə mərhələsinə aparmalıyıq".

Ralk Ranqnik bildirib ki, onlar Türkiyə ilə görüşdə öz şanslarından yetərincə yararlana bilməyiblər: "Bundan başqa, standart vəziyyətlərdə heç də yaxşı müdafiə oluna bilmədik".

Ranqnik matçın son dəqiqəsində Türkiyə millisini fantastik sıçrayışla qoldan xilas edən Mert Günoku 1966-cı ildə İngiltərə millisi ilə birgə dünya çempionu olmuş qapıçı Qordon Benkslə müqayisə edib: "Bəxtimiz gətirmədi və inanıram ki, əlavə vaxt olsaydı, qalib gələcəkdik. Əlbəttə, hesabı bərabərləşdirmək üçün vaxtımız var idi. Lakin əgər qapıda Qordon Benks dayanıbsa, qol vurmaq çətindir".

## Türkiyə millisi 16 milyon avro qazanıb

**"Avro-2024"də iştirak edən Türkiyə millisinin qazancı bəlli olub. Turnirin 1/8 finalında Avstriyaya qalib gəlib 1/4 finala yüksələn "ay-ulduzlular" gəlirini də artırıb.**

Hazırkı durumda Türkiyə Futbol Federasiyasının UEFA-dan qazancı 16 milyon 250 min avro mükafat təşkil edir. Bu məbləğ aşağıdakı qaydada müəyyən olunub:

*Yarışda iştirak üçün: 9 milyon 250 min avro*
*Qələbələrə görə: 3 milyon avro (hər qələbəyə görə 1 milyon)*
*1/8 finala yüksəldiyinə görə: 1,5 milyon avro*
*1/4 finala yüksəldiyinə görə: 2,5 milyon avro*



## 1/4 FİNAL MƏRHƏLƏSİ

**5 iyul**

**20:00. İspaniya - Almaniya (Berlin)**
**23:00. Portuqaliya - Fransa (Hamburq)**

## Merihdən UEFA-ya atmaca

**Türkiyə milli komandasının müdafiəçisi Merih Demiral UEFA-nın onun barəsində intizam işi açmasından sonra paylaşım edib. Daha öncə yayılan məlumata görə, "Avro-2024"ün 1/8 finalında Avstriya ilə oyunda (2:1) dubl edən Türkiyə millisinin üzvü Merih Demiral UEFA tərəfindən cəzalandırıla bilər.**

Buna səbəb müdafiəçinin qol sevincini türklüyün rəmzi hesab edilən "boz qurd" işarəsi ilə qeyd etməsidir. UEFA məsələ ilə bağı araşdırmaya başlanıldığını açıqlayıb.

Merihin bu hərəkəti UEFA-nın İntizam Komitəsi tərəfindən uyğunsuz davranış kimi qiymətləndirilib. İntizam işinin Almaniya hökumətinin müraciəti ilə başladığı bildirilir.



Merih Demiral isə UEFA-nın araşdırma ilə bağlı açıqlamasından sonra sosial media hesabından qollarının şəklini paylaşıb və onun altına "Günaydın Türkiyəm. Nə mutlu türkəm deyənə" sözlərini yazıb.

## Hakim təyinatları açıqlandı

**"Avro-2024"ün 1/4 finalında keçiriləcək Niderland - Türkiyə oyunu üçün hakim təyinatları açıqlanıb. Matçı Fransa Futbol Federasiyasından Kleman Turpin idarə edəcək.**



Ona həmyerliləri Nikolas Danis və Benjamin Paqes kömək göstərəcək. Dördüncü hakim funksiyasını Feliks Zvayer (Almaniya) yerinə yetirəcək.

1/4 final mərhələsinin ilk iki oyununun da hakimləri açıqlanıb. Bu gün İspaniya və Almaniya arasında keçiriləcək oyunu ingiltərəli referi Entoni Teylor idarə edəcək. Portuqaliya - Fransa matçı da ingilislərə tapşırılıb. Oyunun baş hakimi Maykl Oliver olacaq.

## İtaliyalı futbolçu "Arsenal"a keçir



**Rikkardo Kalafiori İngiltərə "Arsenal"ına keçməyə razılıq verib. İtaliyalı müdafiəçi London klubu ilə müqavilənin detallarında ortaq məxrəcə gəlib.**

"Bolonya" Kalafiorinin keçidi üçün 50 milyon avro tələb edir. Əgər klubla qiymət məsələsində razılıq əldə etsələr, 22 yaşlı futbolçu növbəti mövsümə İngiltərədə start verəcək. Londonun digər təmsilçisi "Çelsi" də Rikkardo ilə maraqlanır.

Qeyd edək ki, İtaliya yığmasının üzvü 2023-cü ilin yayından "Bolonya"da çıxış edir. O, son mövsümdə 33 oyunda 2 qol və 5 ötürmə ilə yadda qalıb.

## Rüdiqer şansları bərabər görür

**Almaniya millisinin müdafiəçisi Antonio Rüdiqer 1/4 finalda İspaniyaya qarşı keçirəcəkləri oyunla bağlı fikirlərini bölüşüb.**



Ölkəsinin mətbuatına danışan Rüdiqer bunları deyib: "Böyük və vacib oyun olacaq. Turnirin ən yaxşı komandaları üz-üzə gələcək. Şansları bərabər hesab edirəm. Döyüşməyə hazır olmalıyıq. İrəli getmək üçün cəsarətimiz olmalıdır. Onlar da zəif deyil, yüksək təzyiqlə oynayırlar. Bunun öhdəsindən gələ bilərik. Vacib olan maksimum sakit qalmaqdır. Səhv etmək olmaz".



## Naqelsmanndan qadağa

**Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann futbolçulara "Avro-2024"ün sonuna qədər həyat yoldaşları və sevgililəri ilə görüşməyi qadağan edib.**

"Bild" nəşrinin xəbərinə görə, daha əvvəl futbolçuların həyat yoldaşlarına və sevgililərinə Almaniya millisinin düşərgəsinə baş çəkməyə icazə verilib. Lakin Almaniyanın 1/4 finala yüksəlməsi ilə onlar artıq bazaya buraxılmayacaq. Naqelsmann hesab edir ki, onlar oyunçuları matçlara hazırlaşmaqdan yayındıra bilərlər.

# Fransanı daha ciddi təhlükə gözləyir

## Makronun uğursuz siyasəti bu ölkəni fəlakətə sürükləyir

**Fransada keçirilən Avropa Parlamentinə seçkilərdə ifrat sağçıların üstünlük əldə edəcəyi gözlənilən idi. Fransa prezidenti Emmanuel Makron Avropa Parlamentində (AP) keçirilən seçkilərdə ifrat sağçıların ölkəsində böyük fərqlə birinci yerə çıxmasından sonra parlamenti (Fransa Milli Assambleyası) buraxıb və növbədənkənar ümumi seçkilər keçirmək qərarına gəlib.**



Məsələ ondadır ki, Makron hakimiyyətə gəldiyi gündən islamofobiyanın əsas daşıyıcı rolunda çıxış edərək Fransanı demokratiya, insan haqları və liberalizmin siyasi-ideoloji prinsiplər sırasından uzaqlaşdırdı. Tolerantlıq, demokratiya, insan haqları və liberal dəyərlər öz yerini ultramillətçilərin radikal aqressiyasına verdi. Avropa dəyərlərindən uzaqlaşan Fransada radikalizm siyasi-ideoloji sistemi tədricən dağıtmağa başladı. AP seçkilərinin nəticələrini təhlil edərkən belə qənaətə gəlmək olur ki, Makronun səhvi ucbatından Avropa Birliyinin lokomotivi rolunu öz üzərinə götürən bir ölkədə liberalizmi və tolerantlıq anlayışını artıq ultramillətçi dünyagörüşü əvəzləməkdədir. Bu prosesin ifrat sürətlə inkişaf etməsi isə heç şübhəsiz ki, ultramillətçilərin siyasi hakimiyyətə yürüşünü daha da asanlaşdırır. Prezident Emmanuel Makronun xüsusi siyasi cərəyana çevirdiyi radikalizm və islamofobiya indi Fransanın özünə qarşı ciddi problemə çevrilməkdədir. Belə demək mümkünsə, Makron öz qazdığı quyuya düşüb.

Son seçkilərdə ultramillətçilərin qalib gəlməsi Emmanuel Makronun siyasi mövqelərinə çox ciddi sarsıdıcı zərbə vurub ki, o, Fransa parlamentini buraxaraq növbədənkənar seçkilər elan etmək məcburiyyətində qalıb.

"La Depeche" qəzeti hadisələri şərh edərək yazır ki, Makron müxalifətin payızda etimadsızlıq səsverməsi keçirməsi fonunda hökuməti istefaya göndərmək məcburiyyətində qalmamaq üçün parlamentin aşağı palatası olan Milli Assambleyanı buraxmaq qərarına gəlib.

Qeyd edək ki, Fransada növbədənkənar parlament seçkilərinin birinci turu 30 iyunda keçirilib, ikinci tur isə 7 iyulda baş tutacaq.

Ancaq son proseslər onu göstərir ki, Avropa Parlamentinə seçkilərdə ultramillətçilərə uduzan prezident Emmanuel Makron və onun partiyasının eyni nəticəni təkrarlamayacağına qətiyyən təminat yoxdur. Çünki Fransa parlamentinə seçkilərdə də ultramillətçilərin qalibgəlmə ehtimalı daha real hesab olunur. Üstəlik, bu baş verərsə, prezident Emmanuel Makronun ümumiyyətlə, hakimiyyəti itirə biləcəyi də qətiyyən istisna deyil. Məsələ burasındadır ki, prezident Emmanuel Makron artıq belə bir təhlükənin mövcudluğunu özü də etiraf edir.

Bacarıqsızlığı və səhv siyasəti ilə Fransanı təhlükəyə sürükləyən Emmanuel Makron Fransanı vətəndaş müharibəsi təhlükəsi gözlədiyini açıqca bəyan edib. Onun fikrincə, əgər ultramillətçilər parlament seçkilərində qalib gələrlərsə, bu, onların hakimiyyətə gedən yolunu açmış olacaq. Ultramillətçilərin hakimiyyəti dönəmində Fransada daxili toqquşmaların qaçılmaz olacağı isə qətiyyən şübhə doğurmur.

Görünən budur ki, Ermənistana davamlı dəstək verib "xoşbəxt" gələcək vəd edən Emmanuel Makronun ölkəsi bu gün vətəndaş müharibəsinin astanasındadır. Makronun uğursuz daxili siyasəti Fransanı tam sürətlə fəlakətə çəkir. Aparılan "islahatlar" fransızların milli maraqlarına uyğun deyil və insanların sosial vəziyyətini ciddi şəkildə pisləşdirib. Fermerlərin və müxtəlif sferaları əhatə edən şəxslərin etiraz aksiyaları Fransanın daxilində ciddi problemlər yaradıb. Bütün bunlar həm siyasətçi, həm də prezident kimi Makronun bacarıqsızlığını təsdiq etmək üçün yetərlidir.

Əslində, parlamenti buraxan Makronun özü istefaya getməlidir. Çünki onun rəhbərliyi Fransanın gələcəyi üçün yaxşı heç nə vəd etmir. Əksinə, özünün də qeyd etdiyi kimi, ölkədə daxili ziddiyyətlərin kəskinləşməsi vətəndaş müharibəsini labüdləşdirəcək. Parisin vəziyyətdən çıxmaq üçün yeganə çıxış yolu indiyə qədər yürütdüyü siyasətdən imtina edib, ölkədaxili hüquqi ədaləti təmin etməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# 14 illik hakimiyyətə son

## Britaniyada Mühafizəkarları Leyboristlər əvəzləyir









**Dünən Böyük Britaniyada parlament seçkiləri keçirilib. Yerli vaxtla səhər saat 07:00-dan axşam saat 22:00-dək ölkə üzrə 40 minə yaxın seçki məntəqəsi fəaliyyət göstərib. Seçicilərin əhəmiyyətli hissəsi poçt vasitəsilə səs verib.**

Digərləri ümumi seçkilərdə ilk dəfə şəxsiyyət vəsiqələrini göstərməli olduqları üçün seçki məntəqələrinə gediblər. Bu qayda ötən il tətbiq edilib, lakin sənədlərin çeşidi son dərəcə genişdir - hətta müddəti bitmiş pasportlardan tutmuş pensiyaçılar üçün avtobus kartlarına qədər...

Altı həftəlik ümumi seçki kampaniyası boyunca keçirilən sorğu-anketlərə görə, Leyboristlər Partiyasının qələbə qazanması yüksək ehtimallar arasındadır. Bəzi anketlərə görə Leyboristlər Partiyasının lideri Keir Starmer 1997-ci ildə qələbə çalan və Mühafizəkarlar Partiyasının 18 illik hakimiyyətinə son qoyan Leybortislərin lideri Toni Bleyerdən də yüksək nəticə əldə edə bilər.

Kir Starmer 2020-ci ildən sözügedən siyasi qanada liderlik edir. Baş nazir Rişi Sunakdan praqmatik yanaşması və təmkinli siyasi gedişləri ilə seçilən potensial namizəd 2015-ci ildən parlamentin üzvüdür. Seçki kampaniyası çərçivəsində o əsas diqqəti krallıqda həyat səviyyəsinin aşağı düşməsi, eləcə də hökm sürən siyasi qeyri-müəyyənliklərə yönəldib.

Səsvermə Krallıq üzrə 650 dairədə keçirilib. Çoxluğa yiyələnmək istəyən partiya bunun üçün qanunverici orqanda 326 yerə sahib olmalıdır.

Seçki mübarizəsində Britaniyanın iki əsas partiyası olan mühafizəkarlar və müxalif leyboristlərlə yanaşı, liberal demokratlar, "yaşıllar", "Reform" millətçiləri və krallığın tərkib hissələrində - Şotlandiya, Uels, Şimali İrlandiyada bir neçə regional partiya rəqabət aparmağa çalışıblar.

Seçki məntəqələri bağlandıqdan dərhal sonra səslərin hesablanmasına başlanılıb. Bundan sonra "exit-poll"un nəticələri açıqlanacaq. İlk nəticələr bir saat ərzində gələcək və əksər əyalətlər iyulun 5-də qalibi elan edəcəklər.

Əgər keçirilən rəy sorğuları təsdiqini taparsa, seçkilərdə britaniyalıların hazırkı hökuməti hakimiyyəti itirəcək. Proqnozlara görə, mühafizəkar baş nazir Rişi Sunak leyborist Kir Starmerlə əvəzlənəcək və son 14 ildə ilk dəfə olaraq solçu mütərəqqi qüvvələr hakimiyyətə gələcək. Belə ki, Kir Starmerin bəyənmə reytinqi 44 faiz olduğu halda, Rişi Sunakın göstəricisi 23 faizdən aşağıdır.

Qeyd olunur ki, heç bir rəy sorğusu mühafizəkarlara ölkədə əsas hakimiyyət mənbəyi olan İcmalar Palatasındakı 650 yerdən 100-dən çoxunu vəd etmir.

Xatırladaq ki, Mühafizəkarlar Partiyası 1870-ci ildə "Tori" Partiyası əsasında yaradılıb. Partiyanın ali orqanı illik konfransdır.

Leyboristlər (İşçi) Partiyası 1900-cü ildə yaradılıb. Güclü özəl və dövlət sektorları, bərabər imkanlar cəmiyyəti, əsas vətəndaş hüquqlarına zəmanət verən demokratiya və ətraf mühitin mühafizəsi ilə dinamik ictimai xidmət iqtisadiyyatının tərəfdarıdır.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

Azercell

# abunəçilərinin nəzərinə!

5 avqust 2024-cü il tarixindən etibarən, "Azercell Telekom" MMC-nin fakturasız (Sim-Sim) və fakturalı xətt sisteminin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "Zəngimi Ödə" xidməti ləğv ediləcək.

**Qeyd:** Abunəçilər müxtəlif güzəştli danışıq, internet xidmətləri ilə də bağlı əlverişli istifadə şərtləri olan digər paketlərdən yararlana, həmçinin internet və danışıq dəqiqələrinin bir araya gəldiyi sərfəli tarif paketlərindən istifadə edə bilərlər. Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

Bu barədə düşünək

# Quzu əti mərəzi

## Bu mərəz ölkəmizə hər gün tonlarla ət itkisi bahasına başa gəlir

**Dükan-bazarda ətin kilosu 15-20 manata çatıb. Əvvəl yay aylarında az da olsa qiymət ucuzlaşardı. Əhali öynəsini daha çox tərəvəz yeməkləri ilə yola verdiyindən ətə tələbat azaldığı üçün heyvandarların və qəssabların alverləri əsasən iaşə obyektləri ilə olardı.**



İndi də belədir, lakin bir fərqlə - ətin qiyməti ucuzlaşmır, əksinə, getdikcə bahalaşır. Səbəbləri çoxdur - örüş yerinin azlığından və yemin qiymətindən tutmuş diri heyvanların idxalının azalmasınacan. Lakin bu səbəblərin arasında hamının gördüyü, ancaq fərqinə varmadığı biri də var. Bu, istehlakçı, yəni müştəri kimi əksəriyyətimizin quzu əti "mərəz"inə tutulmağımızdır. Bizim bu sıraya niyə heyvandarları, qəssabları və iaşə obyektlərinin sahiblərini əlavə etməməyimizə gəldikdə, izahı sadədir: təklifi tələb formalaşdırır. Yəni quzu ətinin müştərisi olmasa, nə heyvandar bir neçə aylıq quzunu bazara çıxarar, nə qəssab ona bıçaq çəkər, nə də kababçı şişə vurar.

Əvvəllər hörmətli qonağa qoç kəsərdilər. O vaxtlar əksəriyyət qoç əti yeyərdi, onun ləzzəti damaqdan getməzdi. Çünki istər davar olsun, istərsə də qaramal, heyvanın da yeməli bir vaxtı var. Meyvə kimi o da "yetişməlidir".

Amma xeyli vaxtdır bizdə mərəz səviyyəsinə çatan bir istək var. Hamı quzu, özü də əmlik quzu əti yemək istəyir. Nə onu kəsəndə, nə də yeyəndə insaf qalıb. Azmış kimi, bu mərəzin əcaib bir "virus"u da yaranıb - dişi quzu əti. Deyirlər ki, dişi quzunun əti daha dadlı və yumşaq olur. Daha fikirləşmirlər ki, bununla biz ölkədə heyvandarlığın kökünü kəsmiş oluruq. Dədə-babadan görmüşük ki, damazlığa hətta dar gündə, əl aşağı olanda belə, qıymırdılar ki, ruzi-bərəkət kəsilməsin.

Ölkəmizdə dövlətin dəstəyi sayəsində aqrar sektorun bir çox sahələri üzrə ilbəil məhsul istehsalı artır, idxaldan asılılıq tədricən aradan qalxır. Bunu statistik rəqəmlər də təsdiqləyir. Ancaq həm də qeyd etdiyimiz əcaib "quzu əti mərəzi" ucbatından son dövrlər ət istehsalında azalma müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-may aylarında ölkə üzrə ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz azalıb. Göründüyü kimi, bizim "quzu soyqırımı"mız bumeranq kimi qayıdıb heyvandarlığa və nəticədə özümüzə, daha dəqiq desək, cibimizə dəyir.

Dünyada belə halların qarşısını almaq üçün yazılmış və yazılmamış qadağalar mövcuddur. Həmin qadağalar ona xidmət edir ki, hər bir heyvan yalnız bəslənib müəyyən çəkiyə gəldikdən sonra kəsilsin. Bu yerdə xatırladaq ki, Azərbaycanda əhalinin mütləq əksəriyyəti müsəlmandır. Müqəddəs kitabımızda isə qurbanlıq qoyunun 1, dananın 2 illik olması vacib şərt sayılır. Yəni dinimiz də heyvanları yalnız müəyyən yaşa çatdıqdan sonra kəsməyi bizə buyurur, buna əməl etməmək günah sayılır.

Bir də unutmayaq ki, bizim bu "quzu əti mərəzi"miz yerli qoyun cinsinin kökünün kəsilməsinə də səbəb ola bilər. Bəlkə ən azı bu səbəbə görə Azərbaycanda da, məsələn, qardaş Türkiyədə olduğu kimi, heyvanların kəsilməsi üçün yaş həddi müəyyən edilsin və həmin həddi pozanlar cərimələnsin. Bildiyimizə görə, su hövzələrində körpə balıq tutanlar üçün belə cərimələr mövcuddur. Elə isə heyvandarlıqda niyə olmasın? Axı 10-12 kiloqramlıq bugünkü quzu sabah 25-30 kiloqramlıq qoç, yaxud bala verən qoyun ola bilər. Ölkənin ərzaq təhlükəsizliyinin təminatı kimi vacib olan bu problemin həllini kimlərinsə ağız tamına qurban vermək nə dərəcədə doğrudur?

Qoy bu sualın cavabını başda Kənd Təsərrüfatı Nazirliyi olmaqla Dövlət Baytarlıq Nəzarəti Xidməti, AQTA və adını bilmədiyimiz, amma bu işə birbaşa aidiyyəti olan digər qurumlar versinlər.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Yayda gözlərimizi necə qoruyaq?

**İsti havası və günəş şüaları ilə əhvalımızı xoş edən yay fəsli müəyyən səhhət problemlərinə də səbəb ola bilər. Günəşin faydalarına baxmayaraq, zərərli təsirləri də mövcuddur.**



Yayda yerə çatan günəş radiasiyasının miqdarı qışda olduğundan üç dəfə çoxdur. Ultrabənövşəyi şüalara qarşı ən həssas olan orqanımız gözlərimizdir. Həddindən artıq günəş şüalarına məruzqalma nəticəsində gözlər zədələnə bilər. Buna görə də qızmar aylarda göz sağlamlığına xüsusi diqqət edilməlidir.

### İsti havalarda üzləşdiyimiz problemlərdən biri də göz quruluğudur

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-oftalmoloq Ülkər Həsənova bildirib ki, yayda daha çox virus, allergik və bakterial mənşəli konyuktivitlərə, quru göz sindromuna rast gəlinir: "Ən çox yayılan göz xəstəliyi olan konyuktivit gözün konyuktiva qişasının iltihablı xəstəliyidir. Konyuktivitlə yaz-yay aylarında daha çox rastlaşırıq. Bunun səbəbi günəş şüalarının artması və insanların təbiətdə daha çox olması ilə əlaqədardır. Günəş şüaları, qum və külək konyuktivitin birbaşa səbəbləridir. Xəstəliyin simptomları göz qapaqlarında şişkinlik, qızartı, qaşınma, yanma, sulanma və selikli ifrazatdır. Bu zaman insanlarda tez-tez gözlərini ovmaq istəyi, işığa qarşı həssaslıq yaranır. Açıq havada, günəş şüalarına uzun müddət birbaşa məruz qalan işçilər, göz əməliyyatı olmuş xəstələr, həmçinin yaşlı, hamilə, körpə, xroniki xəstəliyi və ultrabənövşəyi şüalara allergiyası olanlar risk qrupuna daxildir".

Həkim-oftalmoloq deyib ki, konyuktivitə yoluxmuş xəstələrə gözlərinə toxunmamaq tövsiyə edilir. Belə ki, bu zaman gözə yeni infeksiya keçə, hətta mexaniki travma və astiqmatizm kimi daha ağır fəsadlar yarana bilər. Ü.Həsənovanın sözlərinə görə, gözü hər dəfə ovuşduranda onun ön hissəsində yerləşən buynuz qişa incəlməyə başlayır. Bu da gözün ön seqmentinin deformasiyasına və tədricən astiqmatizm yaranmasına səbəb olur.

İsti havalarda üzləşdiyimiz problemlərdən digəri göz quruluğudur. Bu barədə danışan həkim bildirib ki, sağlam göz üçün müəyyən miqdarda göz yaşı lazımdır: "Göz yaşı təbəqəsi gözün ən kənar hissəsini əhatə edir və aydın görməni təmin edir. Bunun üçün mütəxəssislə məsləhətləşərək süni göz yaşları dediyimiz damcılardan istifadə etmək gərəkdir".

### Keyfiyyətsiz eynəklər fəsadlara yol açır

Günəşli havalarda mütləq gün eynəyi, papaq və çətirlərdən istifadə edilməlidir. Bu barədə danışan mütəxəssis bildirib ki, gün eynəkləri seçərkən bəzi məqamlara diqqət etməliyik: "Gün eynəkləri alarkən sertifikatlı eynəklərə üstünlük verilməlidir. Onların çərçivələri yüngül, şüşələri tünd olmalı, keyfiyyətli materialdan hazırlanmalıdır. Ucuz materialdan hazırlanmış eynəklər gözlərimizə zərər yetirməklə birlikdə üz dərisində allergik reaksiyalara səbəb ola bilər. Sarı və qırmızı rəngli şüşələrdən də mümkün qədər istifadə edilməməlidir. Bu eynəklər göz təzyiqinin artmasına, gözlərdə qızartı, ağrı və görmə yorğunluğuna səbəb olur. Gün eynəyi seçərkən onun qoruyuculuğuna xüsusi diqqət edilməlidir. Gözümüzü ultrabənövşəyi şüalardan qorumaq üçün eynək şüşələrinin qoruyuculuq filtri yüksək, minimum isə 50 faiz olmalıdır. Atmosferin azon qatında incəlmə və dəliklər olduğu üçün o, bizi ultrabənövşəyi şüalardan qoruya bilmir. Buna görə də günəşli havalarda gün eynəklərinin istifadəsi mütləqdir".

Həkim-oftalmoloqun sözlərinə görə, uşaqlara 3-4 yaşdan etibarən göz eynəyi taxmaq tövsiyə olunur: "Lap körpə yaşında uşaqların gün eynəyi taxmasına ehtiyac yoxdur. Azyaşlılar gün eynəklərini uzun müddət taxa bilmədikləri üçün digər zamanlarda şlyapa və papaqlardan istifadə etməlidirlər. İsti havalarda hovuzlardan da çox istifadə olunur. Suyun təmizliyi üçün istifadə olunan kimyəvi maddələr göz allergiyalarına səbəb olduğu üçün yaşından asılı olmayaraq, hər kəs hovuza girərkən su eynəklərindən istifadə etməlidir".

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Ölkə ərazisində hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda iyulun 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 755 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Milli Aviasiya Akademiyasının kafedra müdiri professor Səlim Müslümova həyat yoldaşı

**NƏZAKƏT MÜSLÜMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Aviasiya Akademiyasının kafedra müdiri professor Səlim Müslümova həyat yoldaşı

**NƏZAKƏT MÜSLÜMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3166
Sifariş 1457

Qiyməti 60 qəpik